RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 190 (8506) ŞƏNBƏ, 19 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Zaman İlham Əliyevin sənayeləşmə siyasətinin uzaqgörənliyini təsdiq edir

### Prezidentin illər öncə müəyyən etdiyi hədəflər mövcud çətinliklərə qarşı etibarlı sipərdir

**Sumqayıt Kimya Sənaye Parkı Prezident İlham Əliyevin 21 dekabr 2011-ci il fərmanı ilə yaradılıb. Sənaye istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək məqsədilə hələ 9 il əvvəl bu qərar verilərkən xam neftin qiyməti də indikindən azı 3 dəfə yüksək idi. Respublikamıza indikindən dəfələrlə artıq neft gəlirləri daxil olurdu. Lakin heç kim təsəvvür belə etmirdi ki, cəmi 3 ildən sonra qlobal iqtisadiyyat yendən çalxalanacaq, neftin qiymətləri çağdaş tarixin minimumuna düşəcək.**

Müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr yaradılıb

Son illər dünya iqtisadiyyatında baş verən proseslər Prezident İlham Əliyevin iqtisadi inkişafla bağlı müəyyən etdiyi hədəflərin nə qədər uzaqgörən olduğunu təsdiq edir. Xüsusən Azərbaycanda sənayeləşmə istiqamətində atılan addımlar beynəlxalq maliyyə böhranlarının və neftin qiymətlərinin düşməsi fonunda İlham Əliyevin illər öncəki iqtisadi təşəbbüslərinin nə qədər doğru olduğunu, dövrün çağırışlarına çevik cavab verdiyini, ən əsası ölkənin yeni mərhələdə inkişafına xidmət etdiyini göstərir.

*Ardı 4-cü səh.*



## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Milli Musiqi Günü ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi “Instagram” səhifəsində Milli Musiqi Günü ilə bağlı paylaşım edib. Paylaşımda deyilir:**

“Milli Musiqi Günü münasibətilə Azərbaycan musiqisinin qorunub saxlanılması, inkişaf etdirilməsi və dünyada tanıdılması naminə əlindən gələni əsirgəməyən hər kəsə səmimi təbriklərimi yetirir, onlara bu işdə böyük uğurlar və nailiyyətlər arzulayıram. Bu gün 135 illiyini qeyd etdiyimiz görkəmli Azərbaycan bəstəkarları Üzeyir Hacıbəylinin və Müslüm Maqomayevin əziz xatirəsini ehtiramla yad edirəm. Arzu edirəm ki, milli musiqimiz öz ənənələrini qoruyub saxlayaraq yeni səslərlə, yeni ifalarla və yanaşmalarla daim zənginləşsin!”

## Azərbaycan ilə Nepal arasındakı ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı imkanlar mövcuddur

Nepal Federativ Demokratik Respublikasının Prezidenti zati-aliləri xanım Bidhya Devi Bhandariyə

Hörmətli xanım Prezident!

Nepal Federativ Demokratik Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Ölkələrimiz arasındakı ikitərəfli münasibətlərin, beynəlxalq təsisatlar, xüsusən də Qoşulmama Hərəkatı çərçivəsində əlaqələrin inkişafı üçün yaxşı imkanlar mövcuddur.

Bu xoş gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim rifah və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2020-ci il*

## Dövlətimiz gənclərin bilikli, savadlı olmaları üçün lazımi şərait yaradıb

**Azərbaycan Prezidenti İlham Əliyevin yeni dərs ilinin başlanması və “Bilik Günü” münasibətilə müraciəti ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. Müəllimlərə, tələbələrə və şagirdlərə xitabən deyilən bu müraciətdən göründüyü kimi, 2020-2021-ci tədris ili qarşısında yeni ümumtəhsil məktəblərinin istifadəyə verilməsi bir daha onu göstərir ki, pandemiya dövründə də təhsilə diqqət və qayğı prioritetliyini saxlayıb.**



Ölkə rəhbəri müraciətində bildirmişdir: “Bu il yeni dərs ili yeni şəraitdə, pandemiya dövründə başlayır. Bunu nəzərə alaraq yeni dərs ili yeni formatda təşkil ediləcəkdir. Bizim əsas məqsədimiz ondan ibarətdir ki, Azərbaycan xalqını bu bəladan qoruyaq və qəbul edilmiş bütün qərarlar bu məqsədi güdür”.

Müraciətdə qeyd olunduğu kimi, pandemiyanın fəsadlarına, iqtisadi tənəzzülə, neft gəlirlərinin azalmasına baxmayaraq, ölkəmizdə ümumtəhsil və ali məktəb binalarının tikintisi davam etdirilmiş, nəzərdə tutulmuş sosial layihələrin biri də ixtisar edilməmişdir... Azərbaycanda hazırda 4500-ə qədər məktəb var, onların 3700-ü tam təmir olunmuş və ya yenidən tikilmişdir. Bununla yanaşı, karantin rejiminin çətinliklərinə baxmayaraq, ali məktəblərin korpuslarının tikintisi də davam etdirilmişdir. Gəncədə Dövlət Aqrar Universitetinin, ADA Universitetinin, eləcə də Azərbaycan Dövlət İqtisad Universitetinin Bakının Yasamal rayonunda yerləşən və yenidən inşa olunan tədris korpuslarının açılışında Prezident İlham Əliyev və ictimaiyyətin nümayəndələri də iştirak etmişlər.

*Ardı 5-ci səh.*



## Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir

### Bu şəhərdə istehsal olunan sənaye məhsullarının həcmi Gürcüstan və Ermənistanda buraxılan sənaye məhsullarından çoxdur

Xəbər verildiyi kimi, sentyabrın 14-də Prezident İlham Əliyev “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətin nəzdində Peşə Təhsil Mərkəzinin açılış mərasimində iştirak etmişdir. Dövlət başçısı yeni yaradılan təhsil mərkəzində görülən işlərlə tanış olmuşdur.

Prezidentə məlumat verildi ki, Peşə Təhsil Mərkəzinin binası 500 tələbənin təhsil alması üçün nəzərdə tutulub. Qeyd edildi ki, 6 korpusdan ibarət mərkəzin 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxanası, kompüter otağı, idman zalı və 24 inzibati otağı var. Peşə Təhsil Mərkəzinə 2020-2021-ci tədris ili üzrə toma və frezer dəzgahlarının, proqramla idarə olunan avadanlıqların operatorları, elektrik avadanlıqlarına xidmət və təmir üzrə elektrik montyoru, sənayedə quraşdırılma işləri üzrə usta, veb-dizayner, həmçinin proqram təminatçısı ixtisasları üzrə tələbə qəbulu keçirilir.

*Ardı 5-ci səh.*

## SOCAR prioritetlərini dövrün çağırışlarına uyğun seçir

Əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən tərəqqi və inkişaf strategiyası çərçivəsində həyata keçirilən regional və qlobal enerji layihələri ölkəmizin davamlı inkişafında mühüm rol oynayaraq, ölkə iqtisadiyyatının güclənməsinin, xalqın rifah halının durmadan yaxşılaşmasının mühüm amillərindən birinə çevrilmişdir.

Bu gün beynəlxalq enerji sektorunda aparıcı tendensiyalar dünya iqtisadiyyatında yüksək texnologiyaların inkişaf dinamikası ilə müəyyənləşir. Qədim tarixə, zəngin və şərəfli ənənələrə malik Azərbaycan neft-qaz sənayesi də bu tendensiyalardan kənarda qalmır, fəaliyyətini zamanın tələblərinə uyğunlaşdıraraq, modernizasiya və qloballaşma çağırışları ilə uzlaşdırır. Bu çağırışlar enerji sektoru qarşısında yeni məqsəd və vəzifələr qoyur, prioritet sahə olan rəqəmsal texnologiyaların inkişafını, bütövlükdə iqtisadi sistemə, o cümlədən, idarəetmə və tənzimləmə sisteminə tətbiq edilməsini labüdləşdirir.

Hazırda bütün dünya qlobal miqyaslar almış pandemiya təhlükəsi qarşısında qüvvələri səfərbər edib. Yeni növlü koronavirus infeksiyası dünya iqtisadiyyatının bütün sahələrində olduğu kimi, neft-qaz sektorunda da çətinliklər yaratmış, pandemiyadan əvvəlki dövrdə latent şəkildə mövcud olan bir çox problemləri aşkara çıxarmış, daha da kəskinləşdirmişdir. Normal strateji planlaşdırma və proqnoz meyarlarına tabe olmayan enerji bazarlarında qiymət tərəddüdlərinin artdığı, tələb-təklif balansının kəskin surətdə pozulduğu bir məqamda neft hasilatçıları OPEC+ çərçivəsində əldə olunmuş sazişə əsasən istehsalın məhdudlaşdırılması qərarına gəldilər.

*Ardı 3-cü səh.*

## Karantin rejiminin ləğvi də mümkün ola bilər

### Bu həssas məqamda daha diqqətli davranaraq, sağlamlığımıza təhlükə olmayan normal həyata qayıdışı sürətləndirməliyik



Ötən il dekabrın 31-də Çin hökuməti Hubey əyalətinin Uhan şəhərində naməlum pnevmaniyanın yayılmağa başlaması barədə Ümumdünya Səhiyyə Təşkilatına məlumat verib və mütəxəssislər həmin xəstəliyə yeni növ koronavirusun səbəb olduğunu müəyyənləşdiriblər.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən COVID-19 adlandırılan virus infeksiyası martın 11-də pandemiya elan edildi. Artıq həmin vaxtdan yarım ildən çox müddət keçməsinə baxmayaraq, koronavirus addım-addım dünyanı zəbt etməkdə, gözlənilənin və arzuolunanın əksinə yoluxma zəncirini və ölüm sayını sürətlə artırmaqda davam edir.

*Ardı 4-cü səh.*

## Pandemiya Paşinyan iqtidarını çökdürür

### Müxalifət hakimiyyətin koronavirusa qarşı mübarizədəki fəaliyyətini ifşa edir

Koronavirus pandemiyası Ermənistanda ciddi problemlər yaratmaqda davam edir. Bu vəziyyət hakimiyyətdən narazılığı artırdığı üçün iqtidar indi eyforik durumdadır. Elə bu səbəbdən də günahkar axtarışındadır.

Nikol Paşinyanın rəhbəri olduğu “Mənim addımım” fraksiyasından olan deputat Lena Nazaryan günahı bu durumda müxalifətdə axtarmağı məsləhət görür: “Ermənistan hökuməti və komendant ofisi tərəfindən yeni növ koronavirusun yayılmasının qarşısını almaq, virusun alovlanmasının nəticələrini yumşaltmaq və aradan qaldırmaq üçün görülmüş tədbirlərin səmərəliliyinin yoxlanılması üçün parlament istintaq komissiyası həm də müxalifətin fəaliyyətini araşdırmalıdır”. Nazaryanın sözlərinə görə, müxalifət nümayəndələri dəfələrlə ziddiyyətli bəyanatlarla çıxış ediblər və əhalinin koronavirus təhlükələrinə ciddi yanaşmasını faktiki olaraq dayandıran fakta töhfə veriblər.

*Ardı 4-cü səh.*

## Bakı şəhərinin Xətai rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Xətai rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün göstərilmiş vəsaitin 10,05 milyon (on milyon əlli min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 sentyabr 2020-ci il*

# "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələri ziyarət olunub

Sentyabrın 18-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.







DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılıb, hərbi qulluqçuların xidməti və yaşayış şəraitlərinə baxış keçirilib, Ermənistan ilə dövlət sərhədindəki sərhəd-döyüş məntəqələrində xidmət aparan sərhədçilərlə görüşüblər.

"Qazax" əlahiddə sərhəd diviziyasında hərbi tikinti-quruculuq işlərinin gedişi nəzərdən keçirilib, dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun daha da gücləndirilməsi tədbirləri ilə tanış olunub, hərbi hissə və bölmələrin döyüş hazırlığının yüksəldilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

# "Əsrin müqaviləsi" və Azərbaycanın müasir reallıqları" mövzusunda videokonfrans keçirilib

Sentyabrın 18-də Yeni Azərbaycan Partiyasının (YAP) İcra Katibliyində "Əsrin müqaviləsi" və Azərbaycanın müasir reallıqları" mövzusunda videokonfrans keçirilib. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.





Tədbirdə çıxış edən Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov "Əsrin müqaviləsi"nin tarixi əhəmiyyətindən bəhs edib. O bildirib ki, Azərbaycanın müasir tarixinin ən möhtəşəm hadisələrinin sırasında 1994-cü ilin 20 sentyabrında imzalanmış "Əsrin müqaviləsi"nin xüsusi yeri var. Müasir tariximizin ən önəmli hadisələrini sadalamalı olsaq, onların sırasında Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə möhtəşəm qayıdışını və bu qayıdışın bilavasitə nəticəsi kimi qiymətləndirilməli olan bu neft sazişinin imzalanmasını qeyd etmək yerinə düşər. Çünki Ulu Öndər hakimiyyətə qayıtmamışdan əvvəl də neft sazişi imzalamaq cəhdləri olmuşdu, amma bu cəhdlər nəticə verməmişdi. Çünki ölkəmizdə ictimai-siyasi sabitlik yox idi, Azərbaycan müharibə vəziyyətində idi, həmçinin ölkəmizin zəngin karbohidrogen ehtiyatlarının işlənilməsi ilə bağlı kənardan təhdid və təzyiqlər də var idi.

YAP sədrinin müavini qeyd edib ki, Azərbaycanın çətin zamanlarında Ümummilli Lider bu müqavilənin imzalanmasına nail oldu. O deyib ki, müharibə şəraitində olmasına baxmayaraq, Azərbaycan dünyanın enerji mərkəzinə çevrildi. Dünyanın nüfuzlu dövlətləri, nəhəng şirkətləri ölkəmizə cəlb olundu. Bu sazişin imzalanması Azərbaycan iqtisadiyyatının inkişafının əsasını qoydu. Azərbaycan nefti dünya bazarına çıxarıldı, ölkəyə valyuta kütləsi daxil oldu və bununla da inkişaf prosesi başlandı. Beləliklə, 1994-cü il sentyabr ayının 20-də təkcə Azərbaycanın iqtisadiyyatı və enerji sahəsi üçün deyil, bütövlükdə, qlobal enerji siyasətinin həyata keçirilməsi baxımından böyük əhəmiyyət kəsb edən "Əsrin müqaviləsi" imzalandı.

Baş Nazirin müavini qeyd edib ki, "Əsrin müqaviləsi"nin imzalanması birmənalı şəkildə Heydər Əliyevin böyük dühasının və iradəsinin sayəsində mümkün olub. Azərbaycan dövlət müstəqilliyini yenicə əldə etmişdi. Ölkəmizin daxilində və ətrafında gedən siyasi proseslər müəyyən səbəblərdən başa çatmamışdı. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi əzəmətli siyasətə Azərbaycanın neft strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi də daxil idi. O zaman Azərbaycanda vəziyyət tam sabitləşməmişdi, ölkə müharibə vəziyyətində idi və digər risk amilləri də mövcud idi. Bütün bunlara baxmayaraq, Heydər Əliyev Azərbaycan və bütövlükdə, dünya enerji bazarı üçün əhəmiyyət kəsb edən bu layihəni işləyib hazırlayıb həyata keçirə bildi.

YAP sədrinin müavini söyləyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə neft strategiyası uğurla davam edir və artıq 26 ildir ki, "Əsrin müqaviləsi" Azərbaycanın iqtisadiyyatına və xalqın rifahına xidmət etməkdədir. Bu layihənin ən böyük əhəmiyyəti Azərbaycana böyük maliyyə ehtiyatlarının gəlməsi, bu ehtiyatlar hesabına iqtisadiyyatın inkişaf etdirilməsi, insanların rifah halının yaxşılaşması, ölkədə inkişafın yeniləşməsidir. "Əsrin müqaviləsi"nin geosiyasi cəhətdən də böyük əhəmiyyəti var. Belə ki, Azərbaycan həm regionda, həm də dünya birliyində siyasi mövqeyi, nüfuzunun möhkəmlənməsində bu layihənin uğurla həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Əli Əhmədov deyib ki, neftdən gələn gəlirlər xalqımızın rifahının yüksəlməsinə xidmət edir. Prezident İlham Əliyevin əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atdığı addımların əhəmiyyətini vurğulayan Baş Nazirin müavini neft strategiyasının bundan sonra da uzun illər Azərbaycan xalqına xidmət edəcəyini diqqətə çatdırıb.

Videokonfransda geniş məruzə ilə çıxış edən Energetika naziri Pərviz Şahbazov bildirib ki, 26 il əvvəl imzalanmış "Əsrin müqaviləsi" ilə Azərbaycanda və ümumən, regionda yeni bir dövr başlandı. Bu, öz mahiyyətinə görə müstəqillik tariximizin ən mühüm hadisələrindən idi. Nazir vurğulayıb ki, bu gün Azərbaycanın dünyada tutduğu yer 26 il əvvəlkindən çox fərqlənir. Azərbaycan müstəqillik yollarında ilk kövrək addımlarını atan, zəif, qeyri-sabit, sosial-iqtisadi həyatı tənəzzülə məruz qalmış bir ölkədən bu gün regionun liderinə, qlobal enerji-kommunikasiya layihələrinin müəllifinə, beynəlxalq aləmdə yüksək nüfuza malik davamlı inkişaf edən bir dövlətə çevrilib. Ölkəmizi bu səviyyəyə yüksəltmiş nailiyyətlərin təməlində isə məhz "Əsrin müqaviləsi" durur. 1991-ci ildə müstəqilliyin əldə edilməsi Azərbaycanın artıq öz taleyinə sahib olmasının rəsmi təsdiqi idisə, "Əsrin müqaviləsi" də bunun əməli sübutu idi. Bununla xalqımız neçə onilliklərdən sonra artıq öz halal sərvətlərinin sahibinə çevrildiyini və bu sərvətdən xoşbəxt gələcəyi üçün ən səmərəli şəkildə faydalanmaq əzmini, bacarığını ortaya qoydu. Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, yüksək nüfuzu və uzaqgörənliyi sayəsində "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycana Xəzər dənizinin karbohidrogen ehtiyatlarının beynəlxalq əməkdaşlıq əsasında uzunmüddətli işlənilməsini, nəhəng neft-qaz şirkətlərinin qabaqcıl təcrübəsindən, yeni texnologiya və investisiyalarından istifadəni təmin etdi".

P.Şahbazov qeyd edib ki, enerji layihələri Azərbaycanı etibarlı tərəfdaş kimi qlobal enerji təhlükəsizliyi sisteminin ayrılmaz hissəsinə çevirdi. "Əsrin müqaviləsi"nin töhfəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsi ilə regionda enerji marşrutlarının şaxələndirilməsi ideyasını da məhz Azərbaycan reallaşdırdı. Daha sonra "Şahdəniz" qaz yatağı ilə bağlı imzalanmış saziş, həmçinin Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərinin çəkilməsi, ardınca "Cənub qaz dəhlizi" layihəsinin həyata keçirilməsi də bu istiqamətin davamı oldu. Enerji marşrutlarının şaxələndirilməsi, enerji təhlükəsizliyi kimi hədəflərin Azərbaycanda necə uzaqgörənliklə proqnozlaşdırıldığı müasir dünyamızın reallıqlarında öz təsdiqini tapdı.

Nazirin sözlərinə görə, "Əsrin müqaviləsi"nin davam edən bütün bu uğurları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü enerji siyasətinin, bu siyasətin icrasında Azərbaycan neftçilərinin fədakar əməyinin, eyni zamanda beynəlxalq neft şirkətləri ilə səmərəli əməkdaşlığımızın, etibarlı tərəfdaşlığımızın töhfələridir. Beləliklə, ötən bu 26 il ərzində xarici tərəfdaşlarla birgə işimizin bəhrələri və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi sayəsində üç il əvvəl "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənilməsi ilə bağlı Sazişin müddətinin 2050-ci ilədək uzadılması ilə bu müqavilə, əslində, "İki əsrin müqaviləsi" statusu qazanmış oldu.

Hazırda dünya miqyasında ziddiyyətli, mürəkkəb və risklərlə dolu proseslərin cərəyan etdiyini deyən P.Şahbazov bildirib ki, bəşəriyyəti yeni çağırışlarla üzləşdirən koronavirus pandemiyası mövcud geosiyasi nizamda və dünyanın enerji mənzərəsində ciddi dəyişikliklərə əsas verir. Azərbaycanın öz inkişafında yeni səviyyəyə yüksəlməsi həm də enerji siyasətini müasir tələblərə uyğunlaşdırması, yeni geosiyasi reallıqlar, iqtisadi, enerji və ekoloji təhlükəsizlik çağırışları şəraitində enerji mərkəzi kimi əhəmiyyətini qoruyub saxlamasından asılı olacaq. Bu bağlılıqda "Əsrin müqaviləsi" və onun yol açdığı konkret layihələr vasitəsilə ölkəmizin milli təhlükəsizliyini qlobal təhlükəsizlik formulları ilə əlaqələndirən kursun mühüm rol oynayacağı gözləniləndir. İstismara veriləndən bu ilin sentyabrına kimi "Azəri-Çıraq-Günəşli" yataqlarından 516 milyon ton neft hasil olunub, Azərbaycan bu yataqlardan dünya bazarına 305 milyon ton neft ixrac edib, SOCAR-a 48 milyard kubmetrdən çox səmt qazı verilib və ümumilikdə, layihə hesabına145,8 milyard dollar gəlir əldə edilib. Yataqların 2050-ci ilədək işlənilməsi, yeni layihələrə başlanması növbəti 30 ildə bizə bu uğurları davam etdirmək imkanı verəcək. "Azəri-Çıraq-Günəşli" yataqlarının ölkənin əsas gəlir mənbəyi olduğunu və neft-qaz sektorunun gələcək illərdə də Azərbaycan iqtisadiyyatında mühüm yer tutacağını nəzərə aldıqda apstrim əməliyyatlarında davamlılıq strateji əhəmiyyət daşıyır. Neftə qlobal tələbatın azalması, aşağı qiymətlər şəraitində və enerji transformasiyası dövründə bir çox beynəlxalq enerji şirkətlərinin neft-qaz layihələrindən geri çəkildiyi, bərpa olunan enerjiyə üstünlük verən strategiyalar qəbul etdiyi vaxtda belə bir müqavilənin mövcudluğu kifayət qədər etibarlı təminatdır.

Videokonfransda həmçinin Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxış ediblər. Çıxışlarda bildirilib ki, bu gün müstəqil Azərbaycanın iqtisadi müstəqilliyini, yüksək maliyyə təminatına malik ölkəyə çevrilməsini şərtləndirən bir sıra amillər sadalamaq mümkündür ki, bunların sırasında da ölkəmizin uğurlu enerji siyasətinin önəmini xüsusi vurğulamaq lazımdır.

Qeyd olunub ki, 26 il öncə "Əsrin müqaviləsi"nın imzalanması Azərbaycanın güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynamış, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə vermişdir. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən neft strategiyası ölkəmizi lider ölkələr səviyyəsinə yüksəldib. Azərbaycan qısa müstəqillik tarixində özünün iqtisadi imkanlarını və milli gəlirlərini əhəmiyyətli dərəcədə artıraraq dünya miqyasında güclü dövlətə çevrilib.

O da vurğulanıb ki, Azərbaycan "qara qızıl"ın insan kapitalına çevrilməsi istiqamətində də inamlı addımlar atır. Respublikamızda sosial-iqtisadi infrastruktur quruculuğu geniş vüsət alıb. Eyni zamanda özünün güclü iqtisadi potensialına, geniş maliyyə imkanlarına əsaslanan Azərbaycan ölkə vətəndaşlarının yüksək həyat səviyyəsini təmin etməyi hədəfləyən siyasət həyata keçirir.

# *Adil ƏLİYEV:* "Sumqayıt Kimya Sənaye Parkı unikal bir layihədir"

"Bugünkü əmək bazarının dəyişən tələb və meyillərinə uyğun olaraq ölkəmizdə peşə təhsilinə qarşı maraq artır və bu təhsil sahəsinin modernləşdirilməsi prosesi sürətlə davam edir". AZƏRTAC xəbər verir ki, bu fikri Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.



Adil Əliyev deyib ki, hələ 2016-cı ildə iqtisadiyyatın və əmək bazarının dəyişən tələblərə cavab verməsinin təmin edilməsi istiqamətində peşə təhsilinin inkişafı prioritet sahələrdən biri elan edilmişdi. Onun genişləndirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin Fərmanı ilə "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi" təsdiq edildi. Gənclər arasında peşə təhsilinə marağın artırılması və ixtisaslı işçi qüvvəsinin formalaşması sahəsində bu Strateji Yol Xəritəsi qarşıya qoyulmuş əsas tələblərdən birinə çevrildi. Əmək bazarında özəl sektorun peşə təhsilli işçilərə marağını nəzərə alaraq, işəgötürənlərin də peşə təhsili olan kadrlara tələbini sürətləndirmək əsas hədəf olaraq müəyyən edildi.

Artıq bu sahənin inkişafı ilə bağlı PPP (Public Private Partnership) proqramları əsasında peşə təhsilinin inkişafında dövlət və özəl sektorun əməkdaşlığı başlanıb. Peşə təhsilində inkişafın təmin edilməsi ilə bağlı Bakı, Sumqayıt və Gəncə şəhərlərində, eləcə də digər rayonlarda yerləşən peşə təhsili müəssisələrinin rasionallaşdırılması, müasirləşdirilməsi və əmək bazarının tələblərinə uyğun olaraq formalaşdırılması bu sahədə həyata keçirilən islahatların tərkib hissəsidir.

Peşə təhsilinə marağın artması fonunda Cənubi Koreya ilə birlikdə KOİCA proqramına uyğun olaraq 38 milyon manat nizamnamə fondu olan Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzi quruldu. Peşəyə uyğun marağın artması baxımından əyaniliyi artırmaq üçün mərkəz yeni model avadanlıqlarla təmin edilib. Təhsilin formal, qeyri-formal olmasından asılı olmayaraq, burada əsas gələcək işçinin ixtisaslı olmasıdır. Burada ən əsas şərt isə gənclərin gələcəkdə fəaliyyət göstərəcəyi sahənin növündən asılı olmayaraq, ixtisaslı mütəxəssis olaraq yetişdirilməsidir.

Bu yaxınlarda ölkəmizdə peşə təhsilinə olan marağın artmasının əyani bir nəticəsini gördük. İlk dəfə olaraq Sumqayıt Kimya Sənaye Parkının daxilində Peşə Təhsil Mərkəzi yaradıldı. Bu da bir neçə strateji hədəfə nail olunması deməkdir. Birincisi, tələbələr müasir infrastruktura malik mərkəzdə dövrün tələbinə uyğun bacarıqlar və peşə vərdişləri öyrənirlər. İkincisi, tələbələrin praktik təcrübə toplamaq məqsədilə ayrı-ayrı müəssisələrə göndərilməsinə ehtiyac qalmır. Üçüncüsü, tədris və təcrübə prosesində iştirak edən gənclər gələcəkdə Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində iş yeri əldə etmək imkanı qazanırlar.

Sumqayıt Kimya Sənaye Parkı olduqca unikal bir layihədir. Belə ki, park yaradıldıqdan sonra bir çox istehsal müəssisələri parkın daxilində fəaliyyətə başlayıb. Təbii ki, sənaye parklarının yaradılmasında məqsəd, ilk növbədə, ölkənin idxala olan tələbatının ilkin mərhələdə qarşısının alınması, yerli tələbatı ödədikdən sonra ixrac potensialının qiymətləndirilməsi, rentabelli hesab edildikdə ixracın təmin olunmasıdır. İxrac həm də ona görə mühümdür ki, bu sahədən əldə edilən gəlir tədiyyə balansını müsbət səviyyədə saxlamaq üçün əsasdır. İxracın nəticəsində ölkəmizə xaricdən əlavə valyuta gəlir, hansı ki bu gün tədiyyə balansının müsbət səviyyədə saxlanması daha çox neft-qaz sektorunun üzərinə düşür.

"Hesab edirəm ki, bu sahələrin inkişafında sahibkarlar da fəaliyyətlərini genişləndirməlidirlər. Xüsusilə xaricdə yaşayan azərbaycanlı iş adamları mövcud vəziyyəti qiymətləndirməli və Azərbaycana vəsait qoymalıdırlar. Təkcə ona görə yox ki, Azərbaycan onların vətənidir və hər zaman da doğma ölkələrinin dəstəyini hiss edirlər, həm də ona görə ki, ölkəmizdə onlar üçün kifayət qədər cəlbedici və gəlirli sahələr var. Öz ölkələrinə investisiya qoymaq da vətənpərvərlik hissinin yüksək əlamətlərindən biridir", - deyə Milli Məclis Sədrinin müavini qeyd edib.

# Milli Məclisin komitə iclasları olub

Sentyabrın 18-də Milli Məclisin Səhiyyə komitəsi payız sessiyasında ilk iclasını keçirdi. AZƏRTAC xəbər verir ki, komitənin sədri Əhliman Əmiraslanov Milli Məclisin payız sessiyasının başlanması münasibətilə deputatları təbrik edib, onlara qanunvericilik fəaliyyətində uğurlar arzulayıb və gündəliyi təqdim edib.

Əvvəlcə Milli Məclisin yaz və növbədənkənar sessiyaları dövründə Səhiyyə komitəsində görülən işlərin hesabatı dinlənilib. Məlumat verilib ki, hesabat dövründə komitədə 8 iclas keçirilib, 21 məsələ müzakirə olunub. Həmin məsələlərdən 17-si qanun layihəsi olub. Komitədə üç oxunuşda müzakirədən keçən həmin qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasında qəbul edilib.

Hesabat dövründə komitəyə 140 ərizə və şikayət daxil olub. Həmin müraciətlərin araşdırılaraq tədbir görülməsi üçün müvafiq təşkilatlara 100 məktub göndərilib.

Əhliman Əmiraslanov qeyd edib ki, yeni növ koronavirus (COVID-19) pandemiyası ilə bağlı problemlər Səhiyyə komitəsinin üzvlərinin xüsusi diqqətində olub. Pandemiya başlanandan indiyədək deputatlar vətəndaşlarla müntəzəm görüşlər keçirib, yerlərdə vəziyyəti öyrənib, seçicilərin qayğı və çətinliklərinə həssas yanaşaraq problemlərinin həllinə yardımçı olublar. Deputatlar həmçinin koronavirus problemi ilə əlaqədar KİV-də fəal çıxışlar ediblər, lazımi izahat işləri aparıblar.

Yaz və növbədənkənar sessiyalar dövründə komitə COVID-19-la bağlı iki dinləmə təşkil edib. Geniş auditoriyada mövcud vəziyyət və qarşıda duran məsələlər müzakirə olunub. Türkdilli ölkələrdə COVID-19-la əlaqədar vəziyyətin müzakirə edildiyi videokonfransda da məlum oldu ki, ən yaxşı vəziyyət Azərbaycandadır.

Əhliman Əmiraslanov vurğulayıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə görülən əsaslı tədbirlər bütün göstəricilərdə müsbət dinamikanı təmin edib. Hazırda Azərbaycanda 50-yə yaxın laboratoriyada koronavirus testi aparıla bilir. Ölkə miqyasında ən müasir avadanlıqlarla təchiz olunmuş 47 xəstəxana COVID-19 xəstələrin müalicəsi istiqamətində fəaliyyət göstərir. Yoluxanlarla müqayisədə virusdan sağalanların sayında, testlərin aparılmasında, itkilərin azlığında, ölkə üzrə səhiyyə müəssisələrindəki çarpayı sayında Azərbaycanın göstəriciləri çox yaxşıdır. Operativ Qərargahın fəaliyyəti də səmərəli nəticələrini verir.

Hesabat dinlənildikdən sonra komitədə geniş müzakirələr aparılıb. Deputatlar Məlahət İbrahimqızı, İlham Məmmədov, Kamilə Əliyeva, Soltan Məmmədov, Müşfiq Məmmədli, Sədaqət Vəliyeva, komitə sədrinin müavini Rəşad Mahmudov hesabata dair fikirlərini açıqlayıblar, səhiyyə sahəsi ilə əlaqədar bir sıra təkliflər irəli sürüblər.

Yekunda Səhiyyə komitəsinin parlamentin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlərin hesabatı məqbul sayılıb.

Sonra komitə sədri 2020-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı barədə məlumat verib. Qeyd edib ki, qarşıdakı sessiyada müxtəlif qurumlardan komitəyə daxil olacaq qanun layihələri, 2021-ci ilin dövlət büdcəsinin müzakirəsi ilə yanaşı, komitədə "İnsan orqanlarının transplantasiyası haqqında" və "Reproduktiv sağlamlıq haqqında" qanun layihələri də Milli Məclisin müzakirəsinə çıxarılacaq.

Həmçinin komitədə COVID-19, icbari sığortanın tətbiqi, onkoloji xəstəliklər və digər mövzularda dinləmələr keçiriləcək, müxtəlif orqanlardan və vətəndaşlardan daxil olan təkliflərlə bağlı tədbirlər təşkil ediləcək.

Müzakirə zamanı səslənən bəzi təkliflər də iş planına daxil edilib və iş planı təsdiqlənib.

Komitədə baxılan məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olunub.

* * *

Sentyabrın 18-də Milli Məclisin Regional məsələlər komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Komitə sədri Siyavuş Novruzov diqqətə çatdırıb ki, iclasda komitənin 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabat və payız sessiyası üçün iş planının layihəsi müzakirə olunacaq.

İclasın əvvəlində deputatlar komitənin üzvü olmuş mərhum Fəttah Heydərovun xatirəsini bir dəqiqəlik sükutla anıblar. Sonra gündəlikdəki məsələlərə baxılıb. S.Novruzov bildirib ki, 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində komitə tərəfindən 9 iclas keçirilib, 19 məsələ müzakirə olunub. Bələdiyyələrin fəaliyyətinə dair, digər məsələlərlə bağlı bir sıra qanunlara baxılıb. Bunlardan Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi ilə bağlı məsələlər xüsusi qeyd edilib. Komitədə baxılan məsələlər parlamentin plenar iclasına tövsiyə edilib və Milli Məclis tərəfindən qəbul olunub.

Komitə sədri deyib ki, pandemiyaya baxmayaraq, deputatlar regionlarda seçicilərlə mütəmadi görüşlər keçirib, vətəndaşlara hərtərəfli diqqət və qayğı göstəriblər.

Siyavuş Novruzov diqqətə çatdırıb ki, hesabat dövründə komitəyə 700-dən artıq müraciət daxil olub. Hər bir müraciət araşdırılıb və həll edilməsi üçün aidiyyəti qurumlara göndərilib. Bildirilib ki, yenilik olaraq hər bir komitə üzvünün yerlərdə gördüyü işlər barədə məlumatlar toplanıb və ümumi hesabata daxil edilib.

Sonra komitənin payız sessiyası üçün iş planı barədə məlumat verilib. Bildirilib ki, bu sessiyada Azərbaycan Respublikası Prezidentinin, Ali Məhkəmənin, Baş prokurorun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdikləri qanun layihələrinə, Azərbaycan Respublikasının mövcud qanunlarına dəyişikliklər və əlavələr edilməsi haqqında, habelə Regional məsələlər komitəsi üzvlərinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi layihələrə baxılması nəzərdə tutulub.

Sonra komitə üzvləri Nizami Cəfərov, Səttar Möhbalıyev, Aqil Məmmədov, Məzahir Əfəndiyev, Kamran Bayramov, Cavid Osmanov çıxış edərək 2020-ci il yaz və növbədənkənar sessiyalar ərzində təmsil etdikləri bölgələrdə seçicilərlə keçirdikləri görüşlər, vətəndaşların qaldırdıqları məsələlər, mövcud problemlərin həlli istiqamətində görülən işlər barədə ətraflı məlumat veriblər. Deputatlar ölkənin ictimai-siyasi həyatında baş verən son hadisələr, o cümlədən Azərbaycanın Tovuz rayonu istiqamətində Ermənistan tərəfindən törədilən təxribatla bağlı öz fikirlərini açıqlayıblar.

Tədbirdə iştirak edən Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Seyid Hacı Mirhəşim komitə ilə şöbə arasında qanunvericilik sahəsində əməkdaşlıq barədə fikirlərini bölüşüb.

İclasda komitənin 2020-ci il yaz və növbədənkənar sessiyalarında fəaliyyəti müsbət qiymətləndirilib, payız sessiyasının iş planı təsdiqlənib.

# Aİ ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətləri müzakirə edilib

Sentyabrın 18-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Qonşuluq və Genişlənmə üzrə Komissarı Oliver Varhelyi arasında telefon danışığı olub.




Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Aİ Komissarı Ceyhun Bayramovu Xarici İşlər naziri təyin olunması münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb.

Tərəflər Aİ ilə Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri ətrafında fikir mübadiləsi aparıb, o cümlədən ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edəcək yeni saziş layihəsi üzrə danışıqların yekunlaşdırılmasının əhəmiyyətini vurğulayıblar.

Telefon danışığı zamanı həmçinin Azərbaycan ilə Avropa arasında enerji sahəsində mövcud olan strateji tərəfdaşlıq münasibətləri və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən layihələr, o cümlədən "Cənub qaz dəhlizi" layihəsi çərçivəsində Avropa bazarına qazın nəqli, layihənin gələcəkdə genişləndirilməsi imkanları ətrafında müzakirələr aparılıb.

Tərəflər habelə maraq doğuran digər məsələləri müzakirə ediblər.

# Azərbaycan ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında əməkdaşlıq məsələləri müzakirə olunub



Sentyabrın 18-də Xarici İşlər naziri Ceyhun Bayramov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Elena Aymone Sesseranın ölkəmizdəki fəaliyyətinin başa çatdığı bildirilib və nümayəndəliyin yeni rəhbəri xanım Arian Baueri nazir Ceyhun Bayramova təqdim edilib.

Nazir Ceyhun Bayramov xanım Elena Aymonenin fəaliyyətini yüksək qiymətləndirərək, Azərbaycanın BQXK ilə əməkdaşlığı çərçivəsində həyata keçirilən humanitar layihələri məmnunluqla qeyd edib. Nazir həmçinin BQXK-nın Azərbaycandakı nümayəndəliyinin yeni rəhbərinə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ağır nəticələrindən, o cümlədən yüz minlərlə insanın fundamental hüquqlarının pozulmasından, işğalçı ölkənin beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini mütəmadi olaraq pozmasından, mülki şəxsləri və infrastrukturu hədəfə almasından danışan nazir BQXK-nın bilavasitə mandatına daxil olan girov götürülmüş mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəziyyəti ilə bağlı məsələyə xüsusi diqqət ayırıb. O, Azərbaycanın humanitar hüququn normaları əsasında "hamının hamıya" prinsipi əsasında əsir və girovların dəyişdirilməsi mövqeyinin Ermənistan tərəfindən qəbul edilmədiyini vurğulayıb. BQXK-nın bu məsələnin həlli istiqamətində səylərinin artırılmasının vacibliyi qeyd olunub.

BQXK nümayəndələri öz mandatları çərçivəsində Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəziyyəti ilə mütəmadi maraqlandıqlarını və ailələrinə bununla bağlı məlumat verdiklərini qeyd ediblər.

Görüşdə nazir həmçinin BQXK nümayəndələrinə bölgədə yaşanan ən son gərginliklər, Ermənistan rəhbərliyinin məqsədyönlü təxribatçı və təhrikçi fəaliyyəti, münaqişənin danışıqlar yolu ilə həllinə ciddi xələl gətirməsi barədə məlumat verib.

# Ceyhun Bayramovun Antonio Quterreşə məktubu BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi dərc olunub

Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramovun bu ilin 31 avqust tarixində Ermənistanın aqressiv ritorikası və Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirdiyi qeyri-qanuni fəaliyyətinə dair BMT-nin Baş katibi Antonio Quterreşə ünvanlandığı məktub BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi dərc olunaraq yayılıb.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Məktubda Xarici İşlər naziri bu ilin 12-16 iyul tarixlərində Ermənistan-Azərbaycan sərhədinin Azərbaycan Respublikasının Tovuz rayonu istiqamətində silahlı hücum cəhdi nəticəsində siyasi və hərbi məqsədlərinə nail olmayan Ermənistanın son dərəcə təxribatçı bəyanatları və fəaliyyəti ilə təcavüzkar siyasətini davam etdirdiyinə diqqəti yönəldir.

Burada Azərbaycanın ikinci böyük şəhəri olan Gəncə şəhərini, eləcə də Mingəçevir Su Elektrik Stansiyası və digər mühüm əhəmiyyətli mülki infrastrukturları vurmaqla hədələmək, beləliklə də azərbaycanlı mülki əhalini terrorizə etmək siyasəti, Azərbaycanın işğal olunmuş ərazilərində demoqrafik vəziyyəti dəyişmək siyasəti və bu xüsusda Livan ermənilərinin bu ərazilərdə qeyri-qanuni məskunlaşdırılması, eləcə də işğal olunmuş ərazilərdə işğalçı ölkə tərəfindən yaradılmış oyuncaq qurumun bəzi qondarma "strukturlarını" Xankəndidən Şuşaya köçürmək niyyəti, işğal olunmuş ərazilərdə infrastruktur dəyişiklikləri, o cümlədən Azərbaycanın işğal olunmuş əraziləri ilə Ermənistanı birləşdirən yeni yolun çəkilməsi, habelə işğalçı ölkənin ekoloji terror siyasəti və azərbaycanlı mülki əhalini sudan məhrum etməsi kimi konkret faktlar əsasında Ermənistanın ATƏT-in Minsk qrupunun rəhbərliyi ilə həyata keçirilən danışıqlar prosesindən sui-istifadə etdiyi və ilhaqçı siyasəti həyata keçirdiyi BMT Baş katibinin diqqətinə çatdırılır.

Xarici İşlər naziri Ceyhun Bayramov BMT-nin Baş katibini Ermənistanı aqressiv təxribatçı ritorikadan çəkindirmək, işğal olunmuş ərazilərin fiziki, mədəni və demoqrafik xarakterinin dəyişdirilməsinə yönəlik fəaliyyətlərini dayandırmaq, həmçinin Azərbaycanın işğal olunmuş ərazilərindən işğalçı qüvvələrini çıxarmaqla beynəlxalq hüquq öhdəliklərinə riayət etməyə məcbur etmək üçün bütün lazımi addımları atmağa çağırır.

Sənədlə https://undocs.org/a/74/1003 ünvanında tanış olmaq olar.

# Atəşkəs rejimi 38 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 38 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Əlibəyli, Ağdam, Koxanəbi və Əsrik Cırdaxan kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# SOCAR prioritetlərini dövrün çağırışlarına uyğun seçir

*Əvvəli 1-ci səh.*

Perspektiv qeyri-müəyyənliklərdən irəli gələn risklərin təhlili, ən bədbin ssenarilər nəzərə alınmaqla əməliyyat səmərəliliyinin bazar reallıqlarına uyğun şəkildə artırılması mümkün itkiləri minimuma endirməyə imkan verən üsullardan biri kimi mövcud böhran vəziyyətində uğurlu sayılır.

Prezident İlham Əliyevin 2020-ci il avqustun 6-da koronavirusla mübarizə sahəsində görülən tədbirlər və sosial-iqtisadi vəziyyətlə əlaqədar müşavirədə dövlət şirkətləri haqqında söylədiyi tənqidi fikirləri əldə rəhbər tutaraq korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi, effektiv bazar iqtisadiyyatı trendlərinə uyğun transformasiya, əməliyyat və investisiya layihələrinin gəlirliliyinin təmin olunması istiqamətində atdığımız addımları daha da sürətləndiririk. Hələ bir müddət əvvəl McKinsey şirkəti ilə birlikdə SOCAR-ın 2035-ci ilə qədər olan dövrü əhatə edən yeni inkişaf strategiyası hazırlanmışdır və bütün təfərrüatı ilə hökumətə təqdim ediləcək. Strategiyanın əsas prinsipləri sırasında şirkətin dayanıqlı inkişafı, təkmilləşmiş effektiv idarətmə sisteminin tətbiqi, sosial və ekoloji məsuliyyətin artırılması, ölkənin yanacaq-enerji tələbatı ehtiyaclarının dəyərləndirilməsi və şirkətin gəlirliliyinin təmin olunması ilə yanaşı, borclanmanın idarə olunması da mühüm yer tutur. Şirkətin idarəetmə modelinin təkmilləşdirilməsi, funksional idarəetmənin mərkəzləşdirilməsi, biznes əməliyyatlarının çevikliyinə nail olunması, bürokratik maneələrin aradan qaldırılması, idarəçilik proseslərinin sadələşdirilməsi bu məqsədlə nəzərdə tutulan mütləq şərtlərdəndir.

"2035-ci ilə kimi Korporativ Strategiya" SOCAR-ın qlobal, regional və yerli layihələrinin inkişaf tendensiyalarını bütövlükdə əks etdirir, neft-qaz sənayesində gələcək fəaliyyətin koordinasiyasını, dəyər zəncirinin inteqrasiyasının əsas istiqamətlərini müəyyən edir. Sənaye 4.0 tələblərinə uyğun olaraq hazırlanmış sənəddə istehsal tsiklinin rəqəmsallaşmasına, innovasiya və vençur layihələrinə ayrılan investisiya həcmlərinin artırılmasına, kadr potensialının ixtisasdəyişmə və ixtisasartırma proqramları vasitəsilə optimallaşdırılmasına xüsusi yer ayrılıb ki, bununla da şirkətimizin sosial məşğulluq üzrə öhdəliklərinin daha dayanıqlı şəkildə yerinə yetirilməsinə nail olunacaq. Yeni strategiya əsasında investisiya portfelimizi təkrar nəzərdən keçirərək, biznesimizin dayanıqlılığını təmin etmək, habelə şirkətin əməliyyat modelinin səmərəliliyini artırmaq əzmindəyik.

Respublikanın neftə, qaza, emal və kimya məhsullarına olan daxili tələbatını tam təmin etməklə, regional və qlobal enerji təhlükəsizliyində Azərbaycanın payını durmadan artırmaq həmişə olduğu kimi, başlıca strateji hədəflərimizdən biridir. Bu gün bütün dünyada üstünlük bərpa olunan enerjiyə verilir və bu istiqamətdə gedən transformasiya prosesləri dəstəklənir. Bu kursun perspektivi nəzərə alınaraq, gələcək illərdə aşağı karbon emissiyalı biznesin, sirkulyar iqtisadiyyatın və ekoloji cəhətdən daha təmiz əməliyyatların stimullaşdırılmasını qarşıya vacib məqsədlər kimi qoymuşuq. İnanırıq ki, "SOCAR-ın 2035-ci ilə kimi Korporativ Strategiyası" bizi bu məqsədlərə daha da yaxınlaşdıracaq və nəticə etibarilə Azərbaycan iqtisadiyyatının dayanıqlı inkişafına mühüm töhfə verəcək.

Azərbaycanın qlobal brendi olan SOCAR artıq aparıcı enerji şirkətləri ilə bir sırada dayanır. Odur ki, Sənaye 4.0 çağırışları istiqamətində aparılan islahatların davam etdirilməsi və intensivləşdirilməsi zərurəti bu gün daha aktualdır. Rəqəmsal texnologiyalar iri müəssisələrdə fəaliyyətin optimallaşması üçün imkanları genişləndirir, iqtisadi səmərəliliyi, ekoloji effektivliyi və əməyin təhlükəsizliyini dəfələrlə artırır. Son illər ölkəmizdə və onun hüdudlarından kənarda həyata keçirdiyi genişmiqyaslı layihələr çərçivəsində SOCAR-ın əldə etdiyi nailiyyətlər ilk növbədə onunla əlaqədardır ki, biz enerji sektorunda ən müasir rəqəmsal texnologiyalardan istifadə edərək zamanla ayaqlaşmağa çalışmış və buna nail olmağı bacarmışıq. Qarşıda duran vəzifələrin icrası istiqamətində fəaliyyətini məhz bu kriteriyalar əsasında həyata keçirən SOCAR nəzərəçarpacaq irəliləyişlərə imza atıb və uğurlu strateji həmlələrini davam etdirir. Türkiyədəki ən mühüm aktivlərimizdən olan "PETKİM" holdinqi dünyanın aparıcı rəqəmsal şirkətlər arasında özünə layiqli yer tutaraq, rəqəmsal sistemin tətbiqli vasitəsilə əldə etdiyi Sənaye 4.0 standartı sayəsində Dünya İqtisadi Forumunun (WEF) "Global Lighthouse Network"una seçildi. "PETKİM" 2018-ci ildə təsis edilən və "gələcəyin fabrikləri" kimi qəbul olunan 44 üzvdən ibarət "Global Lighthouse Network"ə 2020-ci ildə Türkiyədən seçilən yeganə şirkətdir.

Son illərdə istismara başlamış yeni tipli müəssisələrimizdə - "SOCAR-Polymer" kompleksinin polipropilen və yüksək sıxlıqlı polietilen istehsal edən yüksək texnologiyalı zavodlarında, Türkiyədə "STAR" neft emalı zavodunda, Sumqayıt kimya-sənaye parkı layihəsi çərçivəsində istifadəyə verilmiş Karbamid zavodunda ən qabaqcıl texnologiyalardan, xüsusilə də rəqəmsal texnologiyalardan istifadə olunur.

Bu gün SOCAR planauyğun şəkildə yataqların kəşfiyyatından, karbohidrogenlərin nəqlindən tutmuş son emal prosesinə qədər bütün fəaliyyət sahələrində rəqəmsallaşdırma proqramını uğurla həyata keçirir. Xarici tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz layihələr bu uğurların qazanılmasında mühüm rol oynamışdır. Əməkdaşlıq fəaliyyətlərimiz boyunca qiymətli təcrübə əldə edərək, qabaqcıl praktikanın mənimsənilməsi üzrə uzun bir yol keçmişik. SOCAR bu gün SAP UFAM əsasında "Rəqəmsal yataq" layihəsinə start verərək, neft və qazçıxarma əməliyyatlarını təkmilləşdirir. Bununla da SAP UFAM (SAP və OIS-in birgə həlli) istehsal proseslərini vahid sistemdə birəşdirərək, müəssisənin rəqəmsal nüvəsi olan SAP ERP proqram təminatı ilə inteqrasiya edəcək. Qeyd edək ki, bütün neft hasilatı proseslərinin inteqrasiyalı planlaşdırılması, modelləşdirilməsi, təhlili və monitorinqinə imkan verən vahid məlumat mənbəyinin yaradılması layihəsi SOCAR, Caspian Innovation Center (Xəzər İnnovasiya Mərkəzi), SAP Digital Business Services və OIS əməkdaşları tərəfindən mərhələli olaraq həyata keçirilir. İlk növbədə əsas biznes prosesləri, verilənlər və onların SOCAR-ın ölçmə sistem-mənbələrinə inteqrasiyası, korporativ verilənlər anbarı və SAP ERP rəqəmsal nüvəsi ilə inteqrasiyası üzrə həllər işlənib hazırlanıb. Artıq SOCAR-ın iki neftqazçıxarma idarəsində rəqəmsal üsul razılaşdırılmış alqoritmlər sistemində reallaşdırılıb və sınaqdan keçirilib. Geoloji-texnoloji tədbirlərin seçilməsi, quyuların işinin təhlili, istehsalat prosesinin interqasiyalı modeli və planlaşdırılması üzrə rəqəmsal platformanın funksionallığı nümayiş etdirilib. Əsas istifadəçilər üçün təlimlər keçirilib, eləcə də müxtəlif məlumat qruplarının yoxlanılması və sistemə yüklənməsi üçün qruplar üzrə məsul mütəxəssislər təyin olunub. Rəqəmsal platforma itkilərin əhəmiyyətli dərəcədə azaldılmasına, qərarvermənin dəstəklənməsinə, statik və dinamik məhdudiyyətlərin hesablanması üçün daimi fəaliyyətdə olan aktiv modelin yaradılmasına, bütün biznes obyektlərinin (quyu, boru kəməri, yerüstü avadanlıq, energetika obyektləri və s.) monitorinq panelindəki xəritədə real vaxt rejimində əks olunmasına və onların pasportlarının, son və cari iş parametrlərinin tərtib edilməsinə imkan verir.

SOCAR-ın Azərbaycanda və xarici ölkələrdə fəaliyyət göstərən müəssisələrində vahid konsepsiya əsasında yüksək texnologiyaların tətbiqi üzrə rəqəmsal yol xəritəsi hazırlanıb və uğurla icra olunmaqdadır. Yol xəritəsi fəaliyyət istiqamətlərimizi bütövlükdə əhatə edir. Pandemiya şəraitinə baxmayaraq, Heydər Əliyev adına Neft Emalı Zavodunun və "Azərikimya" İstehsalat Birliyinin qrafikə uyğun olaraq davam etdirilən modernizasiya prosesləri çərçivəsində həyata keçirilən layihələrə verilən mütləq tələblərdən biri də tikinti-quraşdırma və yenidənqurma işlərinin ən mütərəqqi texnoloji səviyyədə həll edilməsidir.

Qlobal enerji bazarında xam neftin qiymətində baş verən kəskin dalğalanmalar, rəqəmsal texnologiya və süni intellekt sistemlərinin tətbiqi, geosiyasi amillər, maye təbii qaz (LNG) və sıxılmış təbii qaz (CNG) ticarətinin həcminin artması, neft və qaz məhsullarına tələbatın azalmasına təsir edən qeyri-iqtisadi amillər, yaşıl texnologiyaların və alternativ enerji istehsalının aktuallaşması fonunda yeni baxış və yanaşmalara ehtiyac bu gün həmişəkindən daha böyükdür. Bu, həm də yeni reallıqlara uyğun olaraq uzunmüddətli perspektivdə neft-qaz sənayesində proqnozlaşdırılan dəyişikliklərlə əlaqədardır.

Qeyd etmək lazımdır ki, son bir neçə ildə Azərbaycanın təşəbbüsü və SOCAR-ın birbaşa iştirakı ilə beynəlxalq və regional əhəmiyyətli bir neçə layihə uğurla icra olunmuşdur. TANAP Qaz İxrac Boru Kəmərinin və STAR Neft Emalı Zavodunun tikintisi və istismara verilməsi, Cənubi Qafqaz Boru Kəmərinin genişləndirilməsi, SOCAR Tradingin fəaliyyət coğrafiyasının, demək olar bütün mühüm beynəlxalq bazarları əhatə etməsi, Gürcüstan, Türkiyə, Ukrayna, Rumıniya, İsveçrə, Avstriya və digər ölkələrdə kommersiya əməliyyatlarının intensivləşdirilməsi kimi strateji layihələr ölkəmizin beynəlxalq mövqelərini gücləndirmişdir. Son illər bütün dünyanın diqqət mərkəzində olan "Cənub qaz dəhlizi" layihəsinin ilkin resurs mənbəyini təşkil edən "Şahdəniz" yatağının işlənilməsinin 2-ci fazası çərçivəsində dəniz platformalarının inşası və istismara verilməsi, Heydər Əliyev adına Neft Emalı Zavodunda və "Azərikimya" İB-də yenidənqurma və modernizasiya proseslərinin mərhələli şəkildə davam etdirilməsi, "SOCAR Polymer", "SOCAR Karbamid" zavodlarının tikintisi kimi genişmiqyaslı layihələrimiz bu qəbildəndir. Eyni zamanda AÇG layihəsi üzrə müqavilənin 2050-ci ilədək, "Şahdəniz" layihəsi üzrə müqavilənin isə 2048-ci ilədək uzadılması, yeni Hasilatın Pay Bölgüsü Sazişlərinin və Risk Xidmət Müqavilələrinin imzalanması qeyd olunmalıdır.

Ötən ilin uğurları siyahısına 2019-cu il noyabrın 30-da TANAP boru kəmərinin Avropaya bağlantısının həyata keçirilməsini, "Ümid" qaz-kondensat yatağında layihə dərinliyi 6270 metr, hasilatı isə gündəlik 1,5-2 milyon kubmetr qaz həcmində planlaşdırılan və yataqda qaz hasilatını gündəlik 3-3,5 milyon kubmetrdən 4,5-5 milyon kubmetrə qədər artırmağa imkan verən yeni quyunun qazılmasına başlanılmasını, SOCAR və Norveçin "Equinor" şirkəti tərəfindən Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan 120 kilometr şərqdə, açıq dənizdə yerləşən "Qarabağ" yatağının kəşf olunmasının təsdiq edilməsini, ötən ay həmin yataqda neft-qaz kəşfiyyatı və hasilatı üçün nəzərdə tutulan və SOCAR-ın BOS Şelf şirkəti tərəfindən tikilən "Qarabağ" dayaq blokunun dənizə yola salınmasını, "Cənub qaz dəhlizi"nin əsas hissələrindən birinin - Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) texniki operatorluğunun BP Eksploration (Shah Deniz) Limited şirkətindən SOCAR-ın törəmə müəssisəsi olan "SOCAR Midstream Operations" MMC-yə keçməsini və s. daxil etmək olar.

Məlum olduğu kimi, cari il aprelin 9-da OPEC+ formatının 23 iştirakçı ölkəsi dünya bazarlarında COVID-19 pandemiyasının təsiri altında yaranan iqtisadi resessiya şəraitini müzakirə etmiş, neftə olan tələb və təklifin tarazlaşdırılması üçün cari il mayın 1-dən etibarən neft hasilatının gündəlik 9,7 milyon barel həcmində azaldılması barədə razılığa gəlmişlər. Azərbaycan Respublikası OPEC+ iştirakçısı kimi görüşdə təmsil olunmuş və digər ölkələrlə birlikdə üzərinə hasilatın könüllü azaldılması ilə bağlı öhdəliklər götürmüşdür. Müzakirələrdə Azərbaycan Respublikasının Energetika Nazirliyi tərəfindən hasilatın müvəqqəti azaldılması kvotalarının ölkədəki hasilatçılar arasında mütənasib şəkildə bölünməsi təklif edilmiş və təklifin icrasının təmin olunması Azərbaycan Respublikasının Nazirlər Kabinetinin tapşırığı ilə SOCAR-a həvalə edilmişdir. Beynəlxalq razılaşmaya əsasən, 2020-ci ilin may və iyun aylarında Azərbaycan üzrə gündəlik hasilat 554 min bareldən, iyul-dekabr aylarında 587 min, 2021-ci ilin yanvar - 2022-ci ilin aprel ayları arasında isə 620 min bareldən yuxarı olmamalıdır. Qeyd edilən göstəricilər yalnız xam neftin hasilatına aiddir. Hasilatın məhdudlaşdırılması prosesində qərarvermə mexanizminin başlıca amilləri kimi yataqların istismarının iqtisadi səmərəliliyi, texniki dayanıqlılığı, sənaye təhlükəsizliyi və ətraf mühitə mənfi təsirin minimuma endirilməsi prinsipləri əsas götürülüb. Əsasən quruda yerləşən və hasilatın maya dəyəri yüksək, məhsuldarlığı isə aşağı olan neft və qaz yataqlarının istismarı dayandırılıb, daha yüksək rentabellik göstəricilərinə malik dənizdə yerləşən yataqlarda isə istismar tam həcmdə davam etdirilir.



Qurudakı yataqlarda hasilatın müvəqqəti məhdudlaşdırılması ilə əlaqədar təbii olaraq aparılan qazma əməliyyatlarının həcmi də azaldılmışdır. Nəticədə əmək fəaliyyətinin həcmi azalan işçilərin əksəriyyəti quyuların konservasiya işlərinə və avadanlıqlara texniki xidmət sahələrinə cəlb olunurlar. Həmin əməkdaşların göstəriciləri SOCAR-ın Kadr Ehtiyatı Bazasına (KEB) daxil edilir, onların müvafiq müəssisə və təşkilatların siyahı tərkibində saxlanılması üçün əmək qanunvericiliyinin verdiyi imkanlar çərçivəsində tədbirlər görülür. Şirkətdaxili vakansiyalar üzrə (əgər həmin ixtisas üzrə KEB-də namizəd varsa) kənardan işə qəbulun dayandırılması və vakansiyaların KEB-ə daxil edilmiş işçilər hesabına təmin olunması, eləcə də işçilərin yenidən hazırlanması və yeni peşələrə yiyələnmələri üçün SOCAR-ın kadr hazırlığı mərkəzlərində çoxsaylı təlimlər təşkil edilir, proqramlar keçirilir. Əməkdaşların yeni ixtisaslara yiyələnməsi həm də rəqəmsal sənaye dövrünün çağırışları ilə aktuallıq qazanmışdır. Başlıca prioritet davamlı inkişafın təmin olunmasına verildiyi üçün biz, SOCAR-da kadr hazırlığı üzrə əsas səylərin məqsədyönlü şəkildə əməkdaşların ixtisasının artırılması və yenidən təhsili istiqamətlərinə yönəldilməsini vacib sayırıq.

Pandemiya təhlükəsinin yaratdığı iqtisadi problemlər fonunda əməliyyat effektivliyinin daha da artırılması qarşıya ən mühüm vəzifə kimi çıxmışdır. Bununla əlaqədar şirkətimizin Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi (SƏTƏMM) və Keyfiyyət üzrə korporativ siyasət sənədi, habelə müvafiq standartlar hazırlanmışdır. Əsas məqsəd bütün müəssisə və struktur vahidlərində sağlam, təhlükəsiz iş mühiti yaratmaq, əməyin mühafizəsini istehsalat zərurətinin fövqünə yüksəltməkdir. Beynəlxalq Neft və Qaz Hasilatçıları Assosiasiyasının (IOGP) üzvü olan SOCAR istehsalat əməliyyatlarında bu nüfuzlu beynəlxalq təşkilatın sənaye üzrə qəbul etdiyi vahid standart və tövsiyələrə əməl edir. Şirkət üzrə "Bizi Qoruyan Qaydalar toplusu" və Əməliyyatların Bütövlüyünün İdarəetmə Sistemi kimi daxili təlimatlar tərtib olunmuş, bu istiqamətdə geniş maarifləndirmə işləri aparılmışdır. SƏTƏMM və Keyfiyyət üzrə hazırlanmış yol xəritələri neft və qaz sənayesində tanınmış beynəlxalq APİ Q1 və Q2 standartlarına uyğunlaşmağa və müvafiq sertifikatların alınmasına kömək edəcək. Qabaqcıl təcrübələrin tətbiqi, əməkdaşlarımızın həyat və sağlamlığının qorunması və ətraf mühitin mühafizəsi ilə yanaşı, şirkətin əməliyyat effektivliyinin artırılmasına da mühüm töhfə olacaq. Aparılan islahatlar istər mütərəqqi beynəlxalq təcrübənin mənimsənilməsini, istərsə də vahid korporativ siyasət çərçivəsində şirkətin bütün müəssisələrində SƏTƏMM və keyfiyyət standartlarının mərkəzləşdirilmiş və vahid formatda tətbiqini təmin edəcək. Risk potensialı olan fəaliyyətlərdə İşə İcazə Vərəqələri SOCAR-ın bütün müəssisələrində artıq mərkəzləşdirilib və vahid standart halına gətirilib ki, bu da istehsalat risklərinin daha effektiv idarə olunması baxımından önəmli şərtlərdəndir. Yaxın müddətdə SOCAR-ın rəqəmsal qolu olan Caspian Innovation Center şirkəti ilə birlikdə İşə İcazə Vərəqələrinin rəqamsallaşdırılması nəzərdə tutulur.

SOCAR bu gün sənayedə ekoloji təhlükəsizlik üzrə dünya standartlarına cavab verən beynəlxalq şirkətlərdən biri kimi tanınır. Ekoloji fəaliyyətin əsas istiqamətləri "Ekoloji Siyasət" sənədində ətraflı əks olunmuşdur. Azərbaycan Respublikasının tərəfdaş olduğu beynəlxalq konvensiyaların tələblərinə və ölkə qanunvericiliyinə uyğun olaraq şirkətin bütün fəaliyyət seqmentləri üzrə aparılan əməliyyatlar zamanı ətraf mühitin qorunması, təbii ehtiyatlardan səmərəli istifadə və yaranan ekoloji fəsadların aradan qaldırılması mütləq tələblər kimi qarşıya qoyulur. Sənəddə yeni fəaliyyət sahələrində ətraf mühitin ilkin vəziyyətinin qiymətləndirilməsi və ona neqativ təsirlərin minimuma endirilməsini təmin etmək məqsədilə "sıfır tullantı" prinsipinə əməl olunması mütləq şərt kimi müəyyənləşdirilmişdir. SOCAR-ın idarə və müəssisələrində ekoloji təhlükəsizliyi və ekosistemə mənfi təsirlərə operativ nəzarəti təmin etmək üçün dənizdə və quru ərazilərdəki istehsal sahələrində davamlı olaraq kompleks monitorinqlər aparılır. 2019-cu il ərzində ətraf mühitin mühafizəsi üzrə 56-sı quruda, 14-ü isə dənizdə yerləşən obyektlərdə olmaqla, ümumilikdə 70 belə monitorinq həyata keçirilmişdir. Ekoloji effektivliyin yüksəldilməsi, yanacaq sərfiyyatının minimallaşdırılması məqsədilə bir sıra texnoloji sistemlərimizdə alternativ külək və günəş qurğularından istifadəni genişləndirməyə nail olmuşuq. Boru xətləri üzərində quraşdırılmış nəzarət-ölçü cihazlarının əksəriyyəti günəş enejisi ilə işləyir. Bundan əlavə, inzibati binaların işıqlandırılması məqsədilə bir sıra müəssisələrdə külək qurğuları və günəş panellərindən istifadə olunur. Ekologiya İdarəsinin Tullantıların İdarə Edilməsi Mərkəzində 3,6 kVt/saat gücündə külək turbinləri, 15,4 kVt/saat gücündə günəş panelləri quraşdırılmış, 2019-cu ildə həmin qurğularda 636 kVt/saat enerji istehsal olunmuşdur. SOCAR 2008-ci ildən Dünya Bankının GGFR ("Global Gas Flaring Reduction") - Qlobal Qaz Yandırılmalarının Azaldılması üzrə Tərəfdaşlıq Təşkilatının Rəhbər Komitəsinin üzvüdür. Ötən müddətdə həyata keçirilmiş layihələr əsasında il ərzində atmosferə atılan 1 milyard kubmetr qaz yığılaraq əhalinin istifadəsinə yönəldilib. Dünya Bankının Ekspert Şurası SOCAR tərəfindən hazırlanan bu layihələri iki dəfə ali mükafata layiq görüb. Sevindirici haldır ki, neft hasilatı zamanı səmt qazı emissiyası göstəricilərinin aşağı olmasına görə Avropa İttifaqına neft ixrac edən əsas 10 ölkə arasında Azərbaycan birinci yeri tutur.

Prezident İlham Əliyev demişdir: "Bizim enerji strategiyamız dostluq, əməkdaşlıq və qarşılıqlı dəstəyə əsaslanır. Tariximizdə Azərbaycan heç bir zaman öz enerji potensialını digər məqsədlər üçün istifadə etməmişdir".

Xəzərin zəngin karbohidrogen ehtiyatlarından sülh və tərəqqi naminə istifadə edilməsi xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə inamla həyata keçirilən enerji strategiyamızın başlıca amalıdır. Qloballaşan dünyanın çağırışları ruhunda ilbəil yeni zəfərlər qazanan bu strategiya Azərbaycanın misilsiz sosial-iqtisadi yüksəlişinin təntənəsini təcəssüm etdirir. Fəxr edirik ki, SOCAR bu qalibiyyətli strategiyanın əsas icraçılarından biri kimi ölkəmizdə və onun hüdudlarından kənarda həyata keçirdiyi genişmiqyaslı layihələr çərçivəsində mühüm uğurlar qazanır. Neftçilərimizin fədakar əməyi sayəsində ilbəil böyüyən, rəqabət qabiliyyətini və əməliyyat çevikliyini artıran şirkətimiz indiyə qədər olduğu kimi, bundan sonra da qarşısına qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcək, Azərbaycanın iqtisadi qüdrətinin daha da möhkəmlənməsi, xalqımızın maddi rifah halının durmadan yaxşılaşması naminə yeni-yeni əmək qələbələrinə imza atacaq.

***Rövnəq ABDULLAYEV,***
***SOCAR-ın prezidenti***

AZƏRBAYCAN www.azerbaijan-news.az

## Azərbaycan ilə İran arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

Azərbaycan Respublikası Baş Nazirinin müavini Şahin Mustafayev İran İslam Respublikasının Azərbaycanda yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanla İran arasında siyasi, iqtisadi, mədəni, energetika və digər sahələrdə dostluq və qonşuluq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulanıb, ikitərəfli əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı koronavirus pandemiyası ilə mübarizə sahəsində hər iki ölkədə həyata keçirilən tədbirlər müzakirə edilib. Eyni zamanda pandemiya dövründə Azərbaycanla İran arasında tranzit-nəqliyyat sahəsində əməkdaşlıqdan, o cümlədən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi üzrə daşımaların davam etdirilməsindən məmnunluq ifadə edilib, bu istiqamətdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının təmsilçiləri diplomatik nümayəndəliklərlə görüşləri davam etdirirlər

Ermənistanın Azərbaycana qarşı daha da intensivləşmiş aqressiv siyasəti ilə regionda gərginləşən vəziyyətlə əlaqədar Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının təmsilçiləri müxtəlif ölkələrin Azərbaycandakı diplomatik nümayəndələri ilə məlumatlandırıcı görüşlərini davam etdirir.

AZƏRTAC xəbər verir ki, sentyabrın 16-17-də icma Xorvatiyanın səfiri Branko Zebiç, Çexiyanın səfiri Milan Ekert, Macarıstanın səfiri Viktor Szederkenyi və Latviyanın səfiri Dainis Qaranç ilə görüşlər keçirib.

Görüşlər zamanı icmanın nümayəndələri Ermənistanın təcavüzkar siyasəti, işğal etdiyi ərazilərimizdə qanunsuz fəaliyyəti, təbii resurslarımızın istismarı, müharibə cinayəti hesab edilən məskunlaşdırma siyasəti, su resurslarından təmas xəttinə yaxın ərazilərdə yaşayan əhalimizə qarşı ekoloji terror vasitəsi kimi istifadə etməsi kimi məsələləri xüsusi olaraq vurğulayıblar.

İcmanın nümayəndələri təcavüzkar Ermənistanın torpaqlarımızın işğalına son qoyması, qaçqın və məcburi köçkün əhalimizin öz doğma yurd-yuvasına qayıtması üçün beynəlxalq təşkilatların Ermənistana təzyiq göstərməsinin vacibliyini bildiriblər.

## *Elman RÜSTƏMOV:* "Bu günədək 49 min borcalanın 886 milyon manat krediti restrukturizasiya edilib"

Azərbaycan Mərkəzi Bankı (AMB) İdarə Heyəti yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının onlayn formatda növbəti iclası keçirilib. İclasda şurada təmsil olunan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK), Azərbaycan Banklar Assosiasiyası (ABA), sahibkarlar və bank sektorunun nümayəndələri, eləcə də şuraya üzv olmayan digər nümayəndələr, həmçinin Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev iştirak ediblər.

AMB-dən AZƏRTAC-a bildirilib ki, şuranın iclası pandemiya şəraitində sahibkarların üzləşdiyi çətinliklər və bu vəziyyətdən çıxışla bağlı bank sektoru ilə əməkdaşlıq istiqamətlərinin müzakirəsinə həsr olunub. Mərkəzi Bankın sədri Elman Rüstəmov qeyd edib: "Şuranın ötən dövrdəki fəaliyyəti göstərir ki, bank sektoru ilə biznes arasında aktiv dialoqun qurulması sahibkarların üzləşdiyi çətinliklərin müəyyən olunmasında və həlli yollarının tapılmasında, maliyyə xidmətlərinə çıxışın yaxşılaşdırılması üzrə görülən işlərin qiymətləndirilməsində və yeni ehtiyacların müəyyənləşdirilməsində çox səmərəli əməkdaşlıq platformasına çevrilib. Şuranın ötən iclaslarında qaldırılmış məsələlərin bir qismi icra edilib, işlərin digər qismi icra prosesindədir, bəzi məsələlərin həlli istiqamətlərində isə müzakirələr gedir".

Sahibkarlara dəstək olaraq görülmüş işlər sırasında xüsusi olaraq sahibkarların idxal əməliyyatları üzrə cari valyuta rejiminin effektivliyinin artırılması məqsədilə müvafiq qaydalara edilmiş dəyişikliklərin əhəmiyyəti diqqətə çatdırılıb. Həmçinin ticarət əməliyyatlarında çeklərlə hesablaşmaların aparılması təcrübəsinin ölkəyə gətirilməsi istiqamətində də aktiv iş başlayıb. Bu mexanizmin tətbiqi biznes hesablaşmalarının şəffaflaşmasına, ticarət əməliyyatlarının aparılmasında tərəfdaşların günlük likvidlik zərurətinin azalmasına, çeki təminat qismində təqdim etməklə bankdan əlavə resurs cəlb edilməsi imkanının yaranmasına, həmçinin ölkədə nağd pul dövriyyəsinin azalmasına şərait yaradacaq. Bunlarla yanaşı, biznes sektorunda gedən proseslər Mərkəzi Bankda dərindən təhlil olunur, sektorun problematikasının davamlı monitorinqi aparılır. Ümumilikdə, şurada qaldırılan digər məsələlərin həlli istiqamətlərində də fəal iş aparılır.

E.Rüstəmov gündəlik üzrə müzakirələrə keçmədən öncə iclas iştirakçılarına ölkə başçısının birbaşa rəhbərliyi ilə koronavirus pandemiyası və beynəlxalq enerji bazarlarında neft qiymətlərinin kəskin düşməsi şəraitində dünya iqtisadiyyatının üzləşdiyi ağır böhranın milli iqtisadiyyata təsirlərinin azaldılması və əhalinin sağlamlığının qorunması, onun iqtisadi fəallığının təmin olunması üzrə görülən ardıcıl işlərdən, həyata keçirilən təxirəsalınmaz tədbirlərdən, bu istiqamətdə maliyyə sektoru qarşısında qoyulan vəzifələrdən danışıb. Bildirib ki, ölkədə makroiqtisadi vəziyyət və sosial-iqtisadi inkişafla bağlı iqtisadi tənzimləmə institutları və maliyyə sektoru qarşısında qoyulan vəzifələr daim diqqət mərkəzində saxlanılır. Pandemiyanın neqativ təsirlərinə baxmayaraq, ölkədə makroiqtisadi və maliyyə sabitliyi qorunur. İnflyasiya məqbul səviyyədədir, milli valyutanın məzənnəsi sabitdir. Yaradılmış makroiqtisadi sabitlik platforması kontrtsiklik monetar siyasət həyata keçirməyə imkan verib. Bu siyasəti yürüdərkən Mərkəzi Bank makroiqtisadi və maliyyə sabitliyini qorumaqla iqtisadi aktivlik və məşğulluğu dəstəkləməyə çalışır.

O, sahibkarlara pandemiya şəraitində dəstəyin artırılması istiqamətində Mərkəzi Bankın banklara, bankların isə, öz növbəsində, sahibkarlara göstərdiyi köməyi qeyd edərək vurğulayıb ki, ilin əvvəlindən bank sektoruna bir neçə istiqamətdə təxminən 1 milyard manat həcmində likvidlik dəstəyi verilib. Ölkə başçısının tapşırıqlarının icrası istiqamətində görülən işlər nəticəsində bu dövrdə biznes kreditləri və ipoteka kreditləri artıb, istehlak kreditləri isə azalıb. İlin əvvəlindən ixrac fəaliyyəti ilə məşğul olan sahibkarlara verilən kreditlər üzrə requlyativ tələblər yumşaldılıb, istehlak kreditləşdirilməsinin daraldılması məqsədilə requlyativ tələblər sərtləşdirilib. Problemli bankların sektordan kənarlaşdırılması həyata keçirilib və həmin banklar üzrə əhalinin əmanətləri qaytarılıb. Pandemiyanın mənfi təsirlərinin minimallaşdırılması məqsədilə bir sıra prudensial normativlər yumşaldılıb, kapital buferlərinin artırılması və pandemiyadan təsirlənən iqtisadi subyektlərin kreditlərinin restrukturizasiyası ilə bağlı tövsiyələr verilib. Bu günədək 49 min borcalanın 886 milyon manat krediti restrukturizasiya edilib. Kredit portfelinin restrukturizasiyası Mərkəzi Bankın requlyativ yumşaltma tədbirləri ilə yanaşı, bankların öz təşəbbüsü ilə də aktiv şəkildə aparılıb. Özünüməşğulluq proqramı çərçivəsində Mərkəzi Bankın təşviqi ilə banklar tərəfindən həssas əhali qrupuna müxtəlif aktivlər təqdim edilib. Kənd yerlərində maliyyə resurslarına çıxışın artırılması məqsədilə Mərkəzi Bank əlaqədar qurumlarla birgə layihəyə başlayıb.

E.Rüstəmov giriş nitqindən sonra iclas iştirakçılarını gündəlikdə duran məsələnin müzakirəsinə dəvət edib. Pandemiya şəraitində sahibkarların üzləşdiyi çətinliklər və bu vəziyyətdən çıxışla bağlı bank sektoru ilə əməkdaşlıq istiqamətləri mövzusu üzrə müzakirələr başlayıb.

ASK-ın prezidenti Məmməd Musayev şura çərçivəsində bank sektoru ilə sahibkarlar arasında qurulan dialoqun verdiyi praktiki faydasından danışıb. Qeyd edib ki, ölkədə iqtisadi idarəetmənin səmərəliliyinin daha da artırılması məqsədilə yaradılmış İqtisadi Şura özəl sektorun inkişafında, sahibkarların üzləşdiyi çətinliklərin həllində də böyük rol oynayacaq. Ona görə də biz apardığımız müzakirələr nəticəsində aktuallıq kəsb edən məsələləri həmin şuranın müzakirəsinə çıxarılması üçün təqdim edə biləcəyik. O, çıxışında bir sıra məsələlərin həllinə, xüsusilə sahibkarların dövriyyə kapitalının çatışmazlığının həlli, bu məsələdə çeklərlə hesablaşmalardan aktiv istifadə, bağlanmış banklarda sahibkarların qalan vəsaitlərinin qaytarılması, nağdsız hesablaşmalarda qarşıya çıxan problemlərin tənzimlənməsi, məhkəmələrdə çoxsaylı mübahisələrə baxılmasının sürətləndirilməsi, qanunvericiliklə bağlı bir sıra dəyişikliklərin aparılması kimi istiqamətlərə diqqət çəkib. M.Musayev ortaya çıxan problemləri prioritetləşdirməyi və növbəti iclasları konkret məsələlərin müzakirəsinə həsr etməyi təklif edib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri T.Mirkişili çıxış edərək bank sektoru ilə özəl sektor arasında dialoqun aparılmasında ortaya çıxan problemlərin qarşılıqlı əməkdaşlıqla tənzimlənməsində şuranın fəaliyyətini yüksək qiymətləndirib. O, diqqətə çatdırıb ki, komitə qanunvericiliklə bağlı ortaya çıxan məsələlərin həllinə dəstək verməyə hazırdır. Hazırda ölkə başçısının tapşırığına əsasən, iqtisadi qanunvericiliyin geniş təhlili aparılır, müasir tələblərə cavab verməyən, biznesin inkişafına mane olan müddəaların dəyişdirilməsi, bütövlükdə, yeni çağırışlara cavab verən iqtisadi-hüquqi bazanın yaradılması üzrə fəal iş aparılır: "Bu işdə sizi də aktiv əməkdaşlığa dəvət edirəm və nəzərinizə çatdırıram ki, Prezident İlham Əliyev, hökumət və Milli Məclis daim vicdanlı, sağlam biznes nümayəndələrinin yanındadır", - deyə, o qeyd edib.

Azərbaycan Banklar Assosiasiyasının prezidenti Zakir Nuriyev biznes sektorunun bir istiqaməti kimi bankların cari fəaliyyətində mövcud şəraitdən irəli gələn çətinlikləri qeyd edərək Mərkəzi Bank tərəfindən bank sektoru üzrə requlyativ-nəzarət çərçivəsində dəyişiklikləri, müvafiq dəstəkləyici tədbirlərin tətbiqini yüksək qiymətləndirib. Diqqətə çatdırıb ki, xüsusilə pandemiyadan daha çox ziyan görən sahələrə maliyyə dəstəyi və müvafiq güzəşt mexanizmlərinin tətbiqi daha vacib olsa da, eyni zamanda banklar həmin biznes subyektlərinin əlavə risklərini üzərlərinə götürməyə çətinlik çəkirlər. O, həmçinin banklarda müvafiq requlyativ yumşaldılma tədbirlərinin müddətinin uzadılması imkanlarına baxılmasının da məqsədəuyğunluğunu deyib.

Bank Tədris Mərkəzinin direktoru Cavanşir Abdullayev çıxışında maliyyə-bank sektoru ilə sahibkarlar arasında mühüm əməkdaşlıq platforması kimi şuranın xüsusilə pandemiya şəraitində biznesə zəruri dəstəyin göstərilməsi baxımından əhəmiyyətini qeyd edib. Sahibkarlar arasında keçirdikləri müntəzəm təhlili sorğular barədə məlumat verərək bildirib ki, mövcud iqtisadi şəraitdə ödəniş qabiliyyətli biznes subyektlərinin sayı azalmaqdadır. Bir çox hallarda onların biznes planları bankları qane edəcək keyfiyyətdə hazırlanmır. Dövlətin biznesə dəstək fondlarının ayrı-ayrılıqda mühüm əhəmiyyətini qeyd etməklə yanaşı, mövcud şəraitdə onların fəaliyyətinin konsolidasiyası imkanlarına baxılmasının vacibliyini diqqətə çatdırıb. Vurğulayıb ki, beynəlxalq praktikada, xüsusən Türkiyə və Malayziya təcrübələrində də rast gəlindiyi kimi, banklar tərəfindən biznesə dəstəkdə daha çox dövlətin zəmanət mexanizmlərindən istifadəyə üstünlük verilməsi məqsədəuyğundur.

Tanınmış iş adamı Abdolbari Gözəl və digər iştirakçılar çıxış edərək daxili bazar üzrə yerli istehsal sahələrinin inkişafının təşviq edilməsi, xüsusən pandemiyadan daha çox ziyan görən sahələrdə bank sektoru qarşısında kredit öhdəlikləri ilə bağlı güzəştlərin davam etdirilməsi, dövriyyə vəsaitlərinin çatışmazlığını həll etmək üçün yeni kreditlərin ayrılması, valyuta rejiminin təkmilləşdirilməsi üzrə əlavə tədbirlərin görülməsi, çeklə hesablaşmaların tətbiq imkanlarının tezliklə reallaşdırılması, mikrokreditləşmə mexanizmləri üzrə tələblərin sadələşdirilməsi, biznesin kreditləşməsinin aktivləşməsi üçün zəmanət mexanizmlərindən daha geniş istifadə edilməsi və digər məsələləri diqqətə çatdırıblar.

Müzakirələrin nəticələrini ümumiləşdirərək E.Rüstəmov görüşün çox faydalı olduğunu deyib. Bildirib ki, iclasda müzakirə olunan məsələlər və irəli sürülən təkliflərin hərtərəfli öyrənilməsi, həmin istiqamətlər üzrə birgə işlərin aparılması davam etdiriləcək. Sonda onu da diqqətə çatdırıb ki, İqtisadi Şurada da biznes nümayəndələrinin iştirakı ilə nəzərdə tutulan görüşlərin keçirilməsi, orada sahibkarlar tərəfindən qaldırılan aktual məsələlərin müzakirəsi onların üzləşdiyi çətinliklərin həlli yollarının tapılmasına kömək edəcək, bütövlükdə, həm real sektorda, həm də maliyyə sistemində biznes subyektlərinin fəaliyyətinə mühüm dəstək olacaq.

# Zaman İlham Əliyevin sənayeləşmə siyasətinin uzaqgörənliyini təsdiq edir

### Prezidentin illər öncə müəyyən etdiyi hədəflər mövcud çətinliklərə qarşı etibarlı sipərdir

*Əvvəli 1-ci səh.*

Ümumiyyətlə, yaxın tariximizdə həyata keçirilən sürətli sənayeləşmə tədbirləri çərçivəsində neft-qaz, qızıl və digər hasilat sahələrində əldə edilmiş uğurlarla yanaşı, sənayenin diversifikasiyası genişləndirilib, yeni istehsal gücləri istifadəyə verilib, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli müəssisələr yaradılıb.

Alüminium və polad istehsalı komplekslərinin yaradılması, Bakıda Gəmiqayırma zavodunun fəaliyyətə başlaması, Gədəbəy və Daşkəsəndə qızıl-mis emalı zavodlarının qurulması, Sumqayıtda neft-kimya sənayesində modernizasiya işlərinin aparılması, Sumqayıtda karbamid və yüksəksıxlıqlı polietilen zavodlarının açılması respublikamızda həyata keçirilən iri sənaye layihələrinin yalnız bir qismidir. Azərbaycanda ənənəvi sənaye sahələri ilə yanaşı, əvvəllər mövcud olmamış hərbi sənaye, kosmik və alternativ enerji sahələri yaradılmış və hazırda bu yeni sənaye sahələrinin inkişafı istiqamətində işlər davam etdirilir.

Müasir texnologiyalara və qabaqcıl təcrübəyə əsaslanan yeni müəssisələrin yaradılması ilə Azərbaycanda istehsal edilən sənaye məhsullarının çeşidi və rəqabətqabiliyyətliliyi də sürətlə artıb. Hazırda ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrində müxtəlif tikinti materialları, avtomobil, kompüter, günəş batareyaları, elektrik avadanlıqları, ərzaq məhsulları, mebel və s. istehsal olunur, bir çox sənaye məhsulları üzrə Azərbaycan özünü təmin edir. Azərbaycanda ənənəvi sənaye sahələri ilə yanaşı, əvvəllər mövcud olmamış hərbi sənaye, kosmik və alternativ enerji sahələri yaradılmış və hazırda bu yeni sənaye sahələrinin inkişafı istiqamətində işlər davam etdirilir.

### Pandemiya şəraitində müsbət dinamika

İnnovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafının gücləndirilməsi, tələbatın ödənilməsində yerli məhsulların payının artırılması, ixrac potensialının yüksəldilməsi, ümumilikdə neft-qaz amilindən asılılığın daha da azaldılması, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması üçün sənaye parklarının yaradılması ilə bağlı təşəbbüslər, bu istiqamətdə 9 il əvvəl atılan ilk addımlar da bütövlükdə, ölkənin gələcək inkişafına yönəlmişdi. Sumqayıt Kimya Sənaye Parkından sonra əldə olunan uğurlu nəticələr Mingəçevirdə, Pirallahıda və Qaradağda da sənaye parklarının yaradılmasını şərtləndirdi. Hazırda bu sənaye parklarında müxtəlif güzəştlər tətbiq edilir, işin səmərəli təşkili üçün müxtəlif xidmətlərin göstərilməsi kimi tədbirlər nəzərdə tutulur. Sənaye parklarının rezidentləri qeydiyyata alındığı tarixdən 10 il müddətinə əmlak, torpaq, mənfəət vergilərindən və idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə ƏDV-dən azad olunurlar. Bundan əlavə, sənaye parklarının rezidentləri idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğulara görə 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

Sentyabrın 14-də Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkının nəzdində Peşə Təhsil Mərkəzinin açılışı zamanı səslənən fikirlər Azərbaycanda yaradılan sənaye parklarının qeyri-neft sektorunun inkişafında nə qədər böyük rol oynadığını göstərir.

Qeyd edək ki, hazırda Sumqayıt Kimya Sənaye Parkında məhsul istehsalı və ixrac istiqamətində müsbət dinamika mövcuddur. Ötən il burada 823 milyon manatlıq məhsul istehsal edilib ki, bunun da 276 milyon manatı - təqribən 33 faizi ixrac olunub. 2020-ci ilin ilk 6 ayı ərzində 534 milyon manatlıq məhsul istehsalı ilə Sumqayıt Kimya Sənaye Parkının ölkə sənayesinin qeyri-neft sektorunda (5,7 milyard manat) xüsusi çəkisi 9,3 faiz, 182 milyon manatlıq ixracla ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında (910 milyon manat) xüsusi çəkisi 20 faiz təşkil edib. Hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insan daimi işlə təmin olunub.

Bu rəqəmlərin hər biri Prezident İlham Əliyevin iqtisadi inkişaf və sənayeləşmə siyasətinin nailiyyətlərini özündə əks etdirir. Nəticə etibarilə isə bu uğurlar Azərbaycanın iqtisadi inkişafının nümunəsidir. Ən mühümü isə odur ki, pandemiya şəraitində belə sənaye müəssisələrinin müsbət dinamika ilə fəaliyyəti Azərbaycan Prezidentinin həyata keçirdiyi iqtisadi siyasət xəttinin dərin məzmunundan xəbər verir.

Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında bir sıra tapşırıq və tövsiyələrini də verdi. İxracyönümlü və idxalı əvəzləyə biləcək istehsalat sahələrinin yaradılması qarşıda duran əsas vəzifələrdir. Ölkəmizin hazırkı iqtisadi siyasətinin mahiyyəti də bunu tələb edir. Dövlət başçısının bununla bağlı tapşırıqlarına əsasən, bu təşəbbüslərlə çıxış edən şirkətlərə həm rezident statusu veriləcək, eyni zamanda, dövlət tərəfindən onlara digər köməkliklər göstəriləcək, o cümlədən güzəştli kreditlər ayrılacaq.

### Hər bir uğur Azərbaycanın inkişafının və güclü dövlətə çevrilməsinin nümunəsidir

Əgər bir neçə il əvvəl, xüsusən, sənayeləşmə istiqamətində bu addımlar atılmasaydı, sənaye parkları yaradılmasaydı, bugünkü qlobal problemlər Azərbaycan iqtisadiyyatına daha ciddi təsir edə bilərdi. Lakin Prezident İlham Əliyevin regional inkişaf siyasəti, qeyri-neft sektorunun yüksəlişinə yol açan təşəbbüsləri bugünkü beynəlxalq iqtisadi çətinliklər fonunda sənaye sahəsindəki uğurlarımızı təmin edir. Dövlət başçısının məqsədyönlü siyasəti nəticəsində Azərbaycan postpandemiya dövründə yenidən sürətli iqtisadi inkişaf yoluna qədəm qoyacaq, regionun ən güclü sənaye mərkəzinə çevriləcək.

Prezident İlham Əliyevin Sumqayıt Kimya Sənaye Parkında söylədiyi "Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük" cümləsi isə bütövlükdə Azərbaycanın müasir inkişaf tarixinə verilən qiymət idi. Bəli, Ulu Öndər Heydər Əliyevin xilas etdiyi, yenidən qurduğu və inkişaf yoluna çıxardığı Azərbaycan bu gün İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən qüdrətli dövrünü yaşayır. Dağılmış müəssisələrin yerində yaradılan modern Sumqayıt Kimya Sənaye Parkı kimi, Azərbaycanın bütün şəhər və rayonları da yenidən qurulub, inkişaf edib. Mövcud iqtisadi çətinliklərə baxmayaraq, indi də hər yerdə quruculuq davam edir, xüsusən heç bir sosial layihə dayandırılmır. Bu baxımdan Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurlar Azərbaycanın həm inkişafının, həm də güclü bir dövlətə çevrilməsinin nümunələridir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Karantin rejiminin ləğvi də mümkün ola bilər




*Əvvəli 1-ci səh.*

BMT-nin Baş katibi Antonio Quterreş son mətbuat konfransında bildirib ki, koronavirus epidemiyası nəzarətdən çıxıb: "COVID-19 pandemiyasının yaratdığı böhran həyatımızdakı digər böhranlardan tam fərqlidir. Bu baxımdan Baş Assambleyanın bu il keçiriləcək iclası digər toplantılardan fərqli olacaq".

O bildirib ki, tezliklə bəşəriyyətdə koronavirusdan ölən insanların sayı 1 milyonu keçəcək: "Koronavirus müasir dünyada sağlamlığımız üçün birnömrəli təhlükədir. Yalnız COVID-19-a qarşı vaksin pandemiyanın yaratdığı böhranı aradan qaldırmayacaq".

Baş katibin sözlərinə görə, çoxları ümidini vaksinə bağlasa da, hazırda pandemiyanın qarşısını alacaq, gözləntiləri doğruldacaq vaksin əldə edilməyib. Antonio Quterreş yaxın 12 ay ərzində müalicəyə kömək edəcək, infeksiyanın yayılmasının qarşısını ala biləcək vasitələrdən istifadənin əhəmiyyətli dərəcədə vacib olduğunu vurğulayıb. COVID-19-un sərhəd tanımadığını qeyd edən Baş katib diqqətə çatdırıb ki, bu gün hər kəs üçün əlçatan bir vaksinə ehtiyacımız var.

Hələlik vaksinlə bağlı tam nəticələr əldə edilmədiyinə görə, təhlükədən qorunmağın digər üsullarından istifadə etməyə məcburuq. Virus hava-damcı yolu ilə insandan-insana keçdiyi üçün əsas şərt sosial izolyasiya qaydalarına əməl etmək, maska taxmaq və gigiyena qaydalarına riayətdir.

### Qəbul edilən qərarların arxasında əhalinin sağlamlığı və rifahının təmini dayanıb

Azərbaycanda koronavirusun yayılmağa başladığı ilk zamandan etibarən ona qarşı effektiv tədbirlərə start verilib, vətəndaşların həyatı, sağlamlığı prioritet məsələ kimi önə çıxarılıb. Pandemiya ilə mübarizədə qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin etibarlı təmini dayanıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında qlobal bəlaya qarşı həyata keçirilən operativ, məqsədyönlü tədbirlər infeksiyanın yayılmasını məhdudlaşdırmağa, sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verib, kütləvi yoluxmanın qarşısını alıb. Məhz dövlət rəhbərinin tapşırığı ilə pandemiyaya qarşı vaxtında görülmüş preventiv tədbirlər sayəsində Azərbaycan dünyanı bürümüş virusa qarşı mübarizədə nümunəvi ölkələr sırasında qərarlaşıb.

### Müsbət dinamikanın tendensiya halını alması məhdudiyyətləri aradan qaldırır

Ölkədəki sanitar-epidemioloji vəziyyətin təhlilinə əsaslanaraq zamanında tətbiq edilən karantin rejimi və müəyyən məhdudiyyətlər hazırda koronavirusa yoluxma sayında əldə olunan nailiyyətlərə birbaşa stimul verib.

Eyni zamanda müsbət dinamikanın tendensiya halını alması pandemiya ilə bağlı tətbiq olunan xeyli məhdudiyyətin aradan qaldırılmasına səbəb olub, avqustun 5-dən etibarən sərt karantin rejimində yumşaldılmalara start verilib. Demək olar ki, əksər iş sahələri fəaliyyətini bərpa edib, rayonlararası gediş-gəliş bərpa olunub. Ən ümdəsi isə ölkə üzrə bütün təhsil müəssisələri pandemiya şərtlərinə uyğunlaşdırılmış formada fəaliyyətə başlayıb.

Təbii ki, ölkədəki sanitar-epidemioloji vəziyyətin təhlilinə uyğun olaraq sentyabrın 30-dək müəyyən məhdudiyyətlər hələ də qüvvədə saxlanılıb.

Amma infeksiyaya yoluxma halları ilə bağlı vəziyyətdən asılı olaraq karantin rejiminin tamamilə aradan qaldırılması da mümkündür, əks təqdirdə isə, sərtləşdirmələrin tətbiqi qaçılmaz olar.

Xüsusilə də, yoluxma sayında müşahidə olunan müsbət dinamika, sağalanların sayının yüksək olması əhali arasında virusun yox olması kimi yanlış fikirlərə yol açmamalıdır.

### COVID-19-la mübarizənin tam təsirli olması həm də vətəndaş məsuliyyətinə bağlıdır

Təbii ki, ölkədə koronavirusla bağlı bu kimi halların yaşanması arzuolunmazdır, şəhər və rayonlarımızda bütün sahələrdə epidemioloji vəziyyətin tələblərinə ciddi əməl olunması mütləqdir.

COVID-19-la aylardır respublikamızda aparılan mübarizənin tam təsirli olması həm də birbaşa vətəndaş məsuliyyətinə bağlıdır. Mütləq şəkildə tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməli, insanlar arasında ara məsafəsinə dair tələblərə əməl etməli və pandemiyanın digər şərtlərini pozmamalıyıq.

O da həqiqətdir ki, dövlətimiz tərəfindən görülən zəruri tədbirlər, əhali tərəfindən qoyulan qaydalara əməl edilməsi sayəsində hazırda karantin rejiminin tamamilə ləğvinin bir addımlığındayıq. Bu həssas məqamda daha da diqqətli davranıb, sağlamlığımız üçün heç bir təhlükə olmayan normal həyata qayıtmağa çalışmalıyıq.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***




## Azərbaycanda koronavirus infeksiyasından daha 135 nəfər sağalıb, 117 nəfər yoluxub

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 135 nəfər sağalıb, 117 yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 1 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 38 min 894 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 36 min 424 nəfər müalicə olunaraq sağalıb, 572 nəfər vəfat edib. Aktiv xəstə sayı 1898 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 41 min 184 test aparılıb. Dünənki test sayı isə 5898-dir.

# Pandemiya Paşinyan iqtidarını çökdürür

*Əvvəli 1-ci səh.*

"İşıqlı Ermənistan" fraksiyasının rəhbəri Edmon Marukyan qeyd edib ki, Nazaryanın səsləndirdiyi məlumatlar reallığa uyğun gəlmir: "Mənim addımım" Ermənistanda koronavirusa qarşı mübarizənin uğursuzluğunda müxalifətin günahını axtarmağa qərar verib".

Müxalifət hakimiyyətin yaşlı elm adamlarına qarşı da bu fonda fəaliyyətini tənqid edir. Yeri gəlmişkən, qeyd edək ki, Ermənistan universitetlərinin rektorları ölkənin səhiyyə naziri Arsen Torosyanın əmrindən sonra yaranmış çətin vəziyyətdən necə çıxmağı müzakirə edirlər. Bildirilir ki, nazirin əmri ilə bütün ali məktəblərdə və orta təhsil müəssisələrində yaşı 65-dən çox olan işçiləri işdən çıxarmaq və onların yerinə gənc mütəxəssislər təyin etmək tapşırılıb. Bundan əlavə, rektorları, müəllimləri və tələbələri təhsil müəssisəsinə getmək hüququndan məhrum etmək üçün bir və ya iki gün ərzində onların siyahısını tərtib etmək göstərişi verilib. Əks təqdirdə təhlükəsiz şəraitin yaradılması üçün məsuliyyəti rektor daşıyacaq.

Həmçinin qeyd edilir ki, Torosyan əvvəlcə məsələni təhsil, elm, mədəniyyət və idman naziri Araik Arutyunyan, maliyyə naziri Atom Janjudqazyan ilə müzakirə etməlidir. Yuxarıda göstərilənləri ümumiləşdirərək "News.am" nazirin əmrinin əməkdar müəllimləri və nüfuzlu alimləri bu sahədən sıxışdırmaq məqsədi daşıdığını bildirib.

Pandemiya fonunda səhiyyə sisteminin müqavimət göstərməməsi, kadr potensialının və iqtisadi resursların azlığı səbəbindən Ermənistanın daha pis duruma düşməsi gözlənilir. Ermənistan hakimiyyəti mövcud vəziyyətlə bağlı çıxış yolları axtarır, bununla bağlı kreditorlara müraciət olunur. Xatırladaq ki, Ermənistanın baş naziri Nikol Paşinyan Beynəlxalq Valyuta Fonduna, eyni zamanda da Avropa Yenidənqurma və İnkişaf Bankına yardımlarla bağlı müraciət edib. Amma istənilən cavab olmadığından vəziyyət pisləşir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Dövlətimiz gənclərin bilikli, savadlı olmaları üçün lazımi şərait yaradıb

Əvvəli 1-ci səh.



Xatırladaq ki, Prezidentin fərman və sərəncamlarına uyğun olaraq, ölkədə ali təhsil sistemində xeyli islahatlar aparılıb. Tələbələrin sosial müdafiəsinin yaxşılaşdırılması, ölkədə yüksəkixtisaslı, peşəkar kadrların hazırlanması, ali təhsildə rəqabət mühitinin formalaşdırılması sahəsində dövlət başçısı tərəfindən əhəmiyyətli qərarlar qəbul olunub. 2019-cu ildə dövlət hesabına təhsil alan tələbələrin sayı 66 faiz artıb. Belə ki, 2018-ci ildə 12 min 300 nəfər dövlət hesabına ali təhsil müəssisələrinə qəbul olunubsa, 2019-cu ildə bu rəqəm 20 min 500-ə çatdırılıb. Təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı sərəncama əsasən, dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı artırılıb. 2020-2021-ci tədris ilində isə təqaüd alan tələbələrin sayının 50 faizə çatdırılması nəzərdə tutulur.

Azərbaycanda təhsilin inkişafına, gənclərin sağlam və savadlı böyümələrinə hər cür diqqət və qayğı göstərən Prezident İlham Əliyev müraciətində cəmiyyətdə ictimai bəlaya çevrilə biləcək çox həssas bir məqama da toxunaraq demişdir: “Bu gün biz qloballaşma adı altında böyük siyasətin təzahürlərini görürük - gənclərin beyni bəzi xarici dairələr tərəfindən zəhərlənir, gənclər yoldan çıxarılır, onlar yalan informasiyalarla, böhtan, şər, təxribat xarakterli məlumatlarla üzləşirlər. Gənclər bəzi hallarda yəqin edə bilmirlər ki, hansı informasiya yalandı, hansı informasiya doğrudur. Ona görə müəllimlərdən çox şey asılıdır. Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adət-ənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq. Bizim uşaqlarımız Vətənə bağlı olmalıdır, xalqa bağlı olmalıdır, müstəqilliyi hər şeydən üstün tutmalıdır, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalıdır, əsrlər boyu qoruduğumuz milli adət-ənənələrimizi qorumalı və onları müdafiə etməlidirlər. Belə olan halda Azərbaycan bundan sonra da müstəqillik və inkişaf yolu ilə gedəcək”.

Azərbaycanın milli müstəqilliyinin möhkəmlənməsində və inkişafında gənclərin dəstəyinə arxalanan ölkə rəhbəri onların elmli, bilikli, savadlı və müasir dünyagörüşə malik olmalarına xüsusi diqqət göstərir. Dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın qayğısı sayəsində son illər ölkəmizdə dünya standartlarına uyğun bir-birindən yaraşıqlı müasir tipli ümumtəhsil məktəbləri istifadəyə verilir, günün tələbləri baxımından yeni ixtisaslar nəzərə alınmaqla, institut və universitetlərin ərazisi genişləndirilir, əlavə korpuslar inşa olunur, peşə-texnikiyönümlü tədris mərkəzləri yaradılır. Belə təhsil ocaqlarından biri də “Bilik Günü” ərəfəsində açılışında Prezident İlham Əliyevin iştirak etdiyi “Sumqayıt Kimya Sənaye Parkı” Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində yaradılmış Peşə Təhsil Mərkəzidir.

Xatırladaq ki, bu, Azərbaycanda ilk dəfə sənaye parkı ərazisində yaradılan peşə təhsili müəssisəsidir. 500 tələbənin təhsil alması üçün nəzərdə tutulan mərkəz 6 korpusdan ibarətdir. Burada 23 tədris otağı, 13 laboratoriya, 154 nəfərlik akt zalı, 184 nəfərlik yeməkxana, kitabxana, kompüter otağı, idman zalı və 24 inzibati kabinet var. Mərkəzin təhsil proqramı beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanıb. Tələbələrin ixtisas fənləri üzrə dərslərinin 80 faizi Sumqayıt Kimya Sənaye Parkının müəssisələrində keçiriləcək. Burada təhsil alan tələbələr həm də gələcəkdə ixtisasları üzrə işlə təmin olunacaqlar.

Prezident İlham Əliyevin fərman və sərəncamları əsasında ölkəmizdə təhsil üzrə strategiya və proqramlar qəbul edilib. Təhsili millətin gələcəyi kimi dəyərləndirən Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirən ölkə rəhbəri son 17 ildə neft kapitalını insan kapitalına çevirmək istiqamətində atdığı addımları ilə təhsilin-elmin-iqtisadiyyatın birliyini yaratmış, yeni texnologiyaların ölkənin hərtərəfli inkişafında rolunu önə çəkmişdir. Bu səbəbdəndir ki, Heydər Əliyev Fondunun dəstəyi ilə “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi çərçivəsində müasir standartlara uyğun məktəblər tikilib, yaxud əsaslı təmir olunub, həmçinin müasir avadanlıqla təchiz olunublar. Ümumiyyətlə, son illər 3700-dən çox məktəb ya yenidən tikilib, ya da əsaslı təmir edilib.

Təhsilin keyfiyyətinin artırılmasında məktəb infrastrukturunun yenilənməsinə xüsusi diqqət göstərən Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yeni məktəb binalarının tikintisinə, mövcud məktəblər üçün əlavə korpusların inşasına, onların əsaslı təmirinə, müasir avadanlıqlarla təminatına, ümumilikdə infrastrukturun tam yenilənməsinə göstərdikləri qayğı diqqətçəkəndir.

Dövlət başçısı tərəfindən neçə illər bundan öncə paytaxt və bölgələrdə qəzalı vəziyyətdə olan bütün məktəblərin tamamilə yenidən qurulması qarşıya əsas məqsəd kimi qoyulub. Görülən işlərlə yaxından tanış olmaq üçün Prezident həmin məktəblərdə olub, əksəriyyətinin açılışında iştirak edib. Ənənəyə uyğun olaraq, ölkə rəhbəri bu günlərdə Əmircan qəsəbəsindəki 154 nömrəli məktəbin açılışında iştirak edib. Xatırladaq ki, məktəbin binası yararsız vəziyyətdə olduğundan sökülərək yerində 58 sinif otağından ibarət 960 yerlik müasir bina inşa olunaraq şagirdlərin istifadəsinə verilib. Məktəb müasir avadanlıqlarla təchiz edilib. Şagirdlərin biliklərə yiyələnmələri üçün lazımi şərait yaradılıb.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

# Kənd Təsərrüfatı Nazirliyində fındıq istehsalçıları və ixracatçıları ilə onlayn videokonfrans olub

Kənd Təsərrüfatı Nazirliyində fındıq istehsalı və ixracı ilə məşğul olan fiziki və hüquqi şəxslərlə onlayn videokonfrans keçirilib.

Videokonfransda Kənd Təsərrüfatı naziri İnam Kərimov, Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri, Azərbaycan Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının üzvləri, fındıq emalı müəssisələrinin rəhbərləri, “Ata-baba” Fındıq İstehsal Kooperativinin üzvləri, Balakən, Zaqatala, Qax, Qəbələ və Xaçmaz rayonlarından olan fermerlər iştirak ediblər.

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə çıxış edən Kənd Təsərrüfatı naziri İnam Kərimov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması ilə bağlı tədbirlər müəyyənləşdirib. Kənd Təsərrüfatı Nazirliyi qarşıya qoyulmuş vəzifələrin icrası məqsədilə aqrar sahənin müxtəlif istiqamətləri üzrə çalışan assosiasiyalar, emal müəssisələri və fermerlərlə mütəmadi görüşlər keçirir. Görüşlərin məqsədi bu sahələrdə mövcud durumu dəyərləndirmək, fermerlərin üzləşdikləri çətinlikləri müzakirə edərək həllinə nail olmaqdır. Fındıqçılığın aqrar sektorda xüsusi yeri olduğunu deyən nazir fındıq məhsullarının ixracatda mühüm rol oynadığını xatırladıb, dövlətin subsidiya mexanizmi vasitəsilə bu sahənin inkişafına dəstək verdiyini bildirib.

Görüşdə yaxın günlərdə fındıq yığımının aktiv mərhələsinin başlayacağı xatırladılıb, fındıq istehsalı zamanı erkən yığımın yaratdığı problemlər, fermerlərlə emal müəssisələri arasında münasibətlər, bağlarda aqrotexniki qulluq tədbirlərinin daha da yaxşılaşdırılması, müxtəlif xəstəliklərə qarşı mübarizə işinin sistemli təşkili, fındıq ixracında aflatoksin problemi və digər məsələlər müzakirə olunub. İştirakçılar fındığın yaş formada erkən yığımının məhsuldarlığa mənfi təsir etdiyini bildirib, bununla bağlı fermerlər arasında maarifləndirmə işlərinin aparılmasının vacibliyini vurğulayıblar. Qeyd olunub ki, məhsulun vegetasiya dövrü başa çatdıqdan sonra yığılması orta məhsuldarlığı 10 faiz artırır. Bu səbəbdən fermerlər fındığı vaxtında yığsalar, daha çox məhsul götürə və daha çox gəlir əldə edə bilərlər. Görüşdə fındıq məhsulları üzrə milli standartların yaradılması, subsidiyaların emal müəssisələri tərəfindən alış aktları əsasında verilməsi, emal müəssisələri ilə fermerlər arasında “müqavilə əsaslı istehsal” razılaşmalarının imzalanması kimi təkliflər səsləndirilib.

Yekunda ölkədə fındıqçılığın daha da inkişafı üçün təkliflərin qısa müddət ərzində sistemləşdirilərək nazirliyə təqdim olunması qərara alınıb. Fındıq istehsalı və ixracatı işə məşğul olan fermer və sahibkarlar belə görüşlərin mövcud çətinliklərin aradan qaldırılması istiqamətində mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

# Yüksək bal toplamış kursantlarla görüş keçirilib

2020-ci ildə respublikamızın ümumtəhsil məktəblərini bitirmiş və qəbul imtahanlarında yüksək nəticələr göstərərək Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasına qəbul olunmuş bir qrup kursantla DTX Kollegiya üzvlərinin görüşü keçirilib. Bu barədə AZƏRTAC-a Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən məlumat verilib.

DTX-nin rəisi general-leytenant Əli Nağıyev kursantları təbrik edib, onlara təhsildə müvəffəqiyyətlər arzulayaraq tapşırıq və tövsiyələrini verib, qarşıda duran vəzifələrdən danışıb.

Xidmət rəisi Ümummilli Lider Heydər Əliyevin adını daşıyan xüsusi təyinatlı ali təhsil müəssisəsinə daxil olmağın hər bir gənc Azərbaycan vətəndaşı üçün şərəfli olduğunu, eyni zamanda böyük məsuliyyət tələb etdiyini bildirib. General-leytenant Əli Nağıyev gənclərin təhsil müddətində əldə edəcəkləri spesifik bilikləri Vətənin müstəqilliyinin, ərazi bütövlüyünün və dövlətin təhlükəsizliyinin etibarlı qorunması istiqamətində uğurla tətbiq edəcəklərinə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin milli maraqlarının təmin olunmasına vicdanla xidmət edəcəklərinə əminliyini bildirib.

Görüşdə çıxış edən kursantlar ölkəmizdə təhsilin inkişafına, gənclərə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Onlar dövlət təhlükəsizliyi orqanlarının sıralarında Vətənə və xalqa sədaqətlə xidmət etmək üçün bundan sonra da əzmlə çalışaraq təlim və təhsildə daim nailiyyətlər qazanacaqlarını ifadə ediblər.

Sonra general-leytenant Əli Nağıyev kursantlara hədiyyələr təqdim edib.

Qeyd olunmalıdır ki, DTX-nin xüsusi ali təhsil müəssisəsinə 2020-2021-ci tədris ili üçün qəbul imtahanlarında 600 bal və daha yuxarı nəticələr göstərmiş kursantların sayı əvvəlki illərlə müqayisədə üstünlük təşkil edib, ən yüksək bal isə 685 olub.

# Sumqayıt Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir

## Bu şəhərdə istehsal olunan sənaye məhsullarının həcmi Gürcüstan və Ermənistanda buraxılan sənaye məhsullarından çoxdur

Əvvəli 1-ci səh.



Burada tədris proqramı beynəlxalq təcrübəyə uyğun hazırlanıb. Mərkəzdə tədris ölkəmizdəki ənənəvi qaydadan fərqlənəcək. Belə ki, tədris müəssisəsinə Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin mütəxəssisləri cəlb olunub. Eyni zamanda tələbələrin ixtisas fənləri üzrə dərslərinin 80 faizi sənaye parkının müəssisələrində keçiriləcək.

Məlumdur ki, indi dünyada texnika və texnologiyalar yüksək səviyyədə inkişaf edib. Bunun üçün də istehsal sahələrində işləyənlərdən xüsusi bilik və bacarıq tələb olunur. Başqa sözlə, hazırda müasir tələblərə cavab verən kadrların hazırlanmasına böyük ehtiyac var. İkincisi, burada təhsil alacaq 500 tələbə üçün iş yeri açılacaq. Beləliklə, gənclərimiz yüksək peşə təhsili almaqla yanaşı, işlə də təmin olunacaqlar.

Prezident İlham Əliyev ölkənin hərtərəfli inkişafı üçün sənayeləşməyə xüsusi önəm verir. Bu məqsədlə ölkədə müasir dövrün tələblərinə cavab verən sənaye parkları və məhəllələri yaradılır. Hazırda Bakıda, Sumqayıtda və Mingəçevirdə müxtəlif növ məhsul istehsal edən nəhəng sənaye parkları, bölgələrdə isə yüksəkkeyfiyyətli məhsul istehsal edən sənaye məhəllələri fəaliyyət göstərir.

Sumqayıt Kimya Sənaye Parkının bu tipli müəssisələr arasında özünəməxsus yeri var. Bu parkın ölkə sənayesinin qeyri-neft sektorunda (5,7 milyard manat) xüsusi çəkisi 9,3 faiz, 182 milyon manatlıq ixracla ölkə üzrə qeyri-neft sənaye məhsullarının ixracında (910 milyon manat) xüsusi çəkisi 20 faiz təşkil edir. Həmçinin bu sənaye parkı əsas sosial məsələ olan işsizliyin aradan qaldırılmasında da mühüm rol oynayır. Hazırda parkda fəaliyyət göstərən müəssisələrdə 5500-dən çox insan daimi işlə təmin olunub. Parkın ərazisi genişləndikcə ölkənin daha çox vətəndaşı burada işə cəlb ediləcək. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkı şəhərdə işsizliyin aradan qaldırılmasına daha çox töhfə verəcək.

Bu gün Azərbaycan Cənubi Qafqazda sənaye məhsulunun 80 faizini istehsal edir. Sumqayıt isə Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Təkcə bu şəhərdə istehsal olunan sənaye məhsullarının həcmi Gürcüstanın və Ermənistanın buraxdıqları sənaye məhsullarından çoxdur.

Prezident İlham Əliyev parkın fəaliyyətinə yüksək qiymət verərək demişdir: “Bu gün biz Sumqayıt Kimya Sənaye Parkının timsalında yeniləşən, güclənən Azərbaycanı görürük. Xüsusilə yada salmalıyıq ki, bu ərazidə nələr olub, biz bu qərarı verəndə bu ərazi hansı vəziyyətdə idi. Çürümüş, dağılmış, fəaliyyətini başa vuran müəssisələr, həm ekoloji fəlakət zonası, həm də ki, istifadəsiz qalan torpaqlar idi. İndi isə burada yüzlərlə hektar sahədə sənaye parkı qurulubdur... Azərbaycana investisiya axını dayanmayacaq. Bizim də əsas məqsədimiz budur. Xüsusilə dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran, əlbəttə ki, bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq məhz bu şəraitdə biz elə addımlar atmalıyıq ki, postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasında olaq və dərhal, vaxt itirmədən yeni inkişaf dinamikasına sahib olaq”.

Sənaye parklarının yaradılmasının ölkəmiz üçün strateji əhəmiyyəti var. İlk növbədə məqsəd ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Biz bu yolla qarşıdakı illərdə dünyanın inkişaf etmiş ölkələrinin sıralarına daxil ola bilərik. İkincisi, daha çox yerli sənaye məhsulu istehsal edərək idxaldan asılılığı aradan qaldırmaqla ölkədən valyuta axınının qarşısını ala, eyni zamanda, yüksəkkeyfiyyətli məhsul ixrac etməklə əlavə valyuta qazana bilərik. Ən başlıca hədəfimiz isə postneft dövründə ölkəmizin dinamik inkişafını qoruyub saxlamaqdır. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu sənayeləşmə siyasəti bizi addım-addım bu məqsədə yaxınlaşdırır.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Təhsil gələcəyin təməlidir

## Tovuz rayonunda 600-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olunan tələbə gənclərlə görüş keçirilmişdir




Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilmiş Tovuz şəhər A. Qasımov adına tam orta məktəbin həyətində keçirilən görüşdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək diqqətə çatdırmışdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə, gənc nəslin hərtərəfli yetişdirilməsinə göstərdikləri qayğı bu sahənin inkişafına geniş yollar açmışdır. Bunu Tovuz rayonunun timsalında aydın görmək olar. Belə ki, təkcə son 16 ildə Tovuzda 39 müasir tipli məktəb binası tikilib istifadəyə verilmişdir.

Xüsusilə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Yeniləşən Azərbaycana yeni məktəb” layihəsi bütün vətəndaşlarda olduğu kimi, tovuzlularda da böyük məmnunluq hissi yaratmışdır. Görüşdə qeyd edilmişdir ki, Heydər Əliyev Fondu tərəfindən 2020-2021-ci tədris ili üçün ümumi şagird sayı 3068 olan 4 müasir məktəb kompleksinin inşası sərhəd bölgəsində yerləşən tovuzlular üçün ən böyük hədiyyədir. Eyni zamanda dövlətin qayğısı ilə Aşağı Quşçu kəndində yenidən inşa olunmuş 1176 şagird yerlik məktəb, Şıxheybət və Göyəbaxan kəndlərinin hər birində 56 şagird yerlik olmaqla 2 modul tipli yeni məktəb də cari ildə istifadəyə verilmişdir. Hazırda Yuxarı Öysüzlü kəndində Müşfiq Əliyev adına məktəb binası yenidən inşa edilir. Əlimərdanlı, Aşağı Mülkülü və Qaraxanlı təhsil ocaqları əsaslı təmir olunur, Molla Ayrım kəndində isə modul tipli yeni məktəb binası quraşdırılır.

Görüşdə o da vurğulanmışdır ki, bu il respublikanın ali məktəblərinə keçirilən test imtahanlarında 23 nəfər tovuzlu gənc 600-dən yuxarı bal toplayaraq tələbə adını qazanmışdır. Ötən ilə nisbətən bu il ali məktəblərə yüksək balla qəbul olunanların sayında 5 nəfər artım olmuşdur. Lakin Tovuzda potensial böyükdür və onun zəngin ənənələri imkan verir ki, daha yüksək göstəricilərə nail olunsun.

Sonra çıxış edənlər builki qəbul imtahanlarında yüksək nəticələrə nail olan məzunları və bütövükdə tələbə adı qazanan bütün tovuzlu gəncləri təbrik etmiş və əmin olmuşlar ki, onların qazandıqları bu uğur davamlı olacaqdır.

Axırda 600-dən yuxarı bal toplayaraq ali məktəblərə qəbul olunan tələbələrə rayon icra hakimiyyətinin fəxri fərmanları və hədiyyələri təqdim olunmuşdur.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Yevlaxda pambığın kombaynlarla yığımına başlanılıb

Yevlax rayonunda pambıqçılıqla məşğul olan fermerlər və torpaq mülkiyyətçiləri məhsul yığımına başlayıblar. Ötən il hər hektardan orta hesabla 26,4 sentner “ağ qızıl” tədarük edən yevlaxlı pambıqçılar bu il hektarın orta məhsuldarlığını 30 sentnerə çatdırmağı qarşıya məqsəd qoyublar.

AZƏRTAC xəbər verir ki, 2020-ci ildə rayonda 1780 hektarı “MKT İstehsalat Kommersiya” MMC və 550 hektarı isə “P-Aqro” MMC ilə bağlanan müqavilə əsasında olmaqla, ümumilikdə, 2330 hektar sahədə pambıq becərilib.

Yüksək məhsul əldə etmək üçün əkin sahələrində aqrotexniki becərilmə qaydalarına ardıcıl və düzgün əməl olunub, cərgələrarası becərmələr, alaq otlarına və zərərvericilərə qarşı kimyəvi mübarizə tədbirləri vaxtında aparılıb. Respublikamızın hər yerində olduğu kimi, Yevlax rayonunda da suvarma suyu qıtlığının olmasına baxmayaraq, şəhər icra hakimiyyəti və Suvarma Sistemləri İdarəsinin mütəxəssislərinin birgə fəaliyyəti nəticəsində pambıq sahələri suvarma suyu ilə tam təmin olunub. Nəticədə yaxşı çıxış alınıb, barlı kollar yetişib. Bu isə məhsulun bol olacağından xəbər verir.



Pambıq yığımı üçün rayonda 9 ədəd pambıqyığan kombayn, 22 ədəd pambığın daşınması üçün traktor, 51 ədəd pambığın daşınması üçün qoşqu, 6 ədəd dərman səpən, 1 ədəd pambıq yükləyici və 2 ədəd pambıq sahələrinin hamarlanması üçün texnikalar hazır vəziyyətə gətirilib. Sentyabrın 18-də ilk olaraq “MKT İstehsal Kommersiya” MMC tərəfindən pambıq yığımına başlanılıb.

“MKT İstehsal Kommersiya” MMC-nin aqronomu Zirəddin Həsənov tarlalarda məhsulun ötən ildəkindən çox olduğunu bildirib: “Bu il 174 nəfər fermerlə 1780 hektar sahədə pambıq becərilməsi üçün müqavilə bağlanıb. Becərmə işləri bütün aqrotexniki qaydalara əsasən aparılıb. Tarlaların vəziyyəti qənaətbəxşdir. Bol məhsulumuz var. Sahələrin hamısını maşınlarla yığacağıq. Hər hektardan 32-35 sentner məhsuldarlıq gözləyirik”.

Kombaynla rayonda mövsümün ilk məhsul yığımına başlayan fermer Həsən Əhmədov da tarlaların vəziyyətindən razılığını ifadə edib: “Yüksək məhsuldarlıq gözləyirəm. Pambığın maşınlarla yığılması daha sərfəlidir. Əl ilə yığım zamanı proses uzandığından məhsul itkisi çox olur. Həm də bizə baha başa gəlir. Odur ki, əkdiyim sahənin məhsulunu maşınla yığıram”.

Qeyd edək ki, 2019-cu ildə Yevlax rayonunda 2406,8 hektar sahədə pambıq becərilib, 6347,8 ton məhsul istehsal edilib, orta məhsuldarlıq 26,4 sentner olub.

# 7 ayda Azərbaycanda 70 min 390 körpə doğulub

Yanvar-iyul ayları ərzində Azərbaycanda 70 min 390 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə bu göstərici 12,1 təşkil edib.



Dövlət Statistika Komitəsindən bildiriblər ki, doğulanların 53,3 faizi oğlan, 46,7 faizi isə qız uşaqlarıdır. Körpələrin 1896-sı əkiz, 69-u isə üçəmdir.

Yeddi ay ərzində ölkədə 37 min 426 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 6,4 təşkil edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Pensiya sistemində yeni təkmilləşdirmələr aparılacaq

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, pensiya təminatının inkişafına, sığorta-pensiya sisteminin təkmilləşdirilməsinə istiqamətlənən islahatlar davam edir.

Dünya təcrübəsində pensiya islahatları başlıca olaraq sərt sığorta prinsiplərinin gücləndirilməsinə yönəlsə də, Azərbaycanda bu islahatlar ilk növbədə pensiyaçıların maraqlarına, pensiyaların davamlı artımına, sosial təminat sistemində humanist yanaşmaların gücləndirilməsinə istiqamətlənir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatında bildirilir ki, ötən il və cari ilin əvvəlində pensiyalarda əhəmiyyətli artımlar olunub, 2019-cu ilin əvvəlindən fərdi hesabında ən kiçik məbləğdə belə pensiya kapitalı qeydə alınanlara 25 il sosial sığorta stajı hədiyyə edilib. Yalnız son bir ilin pensiya artımları pensiyaçılarımıza illik əlavə olaraq 1 milyard manatdan artıq vəsait ödənilməsini nəzərdə tutur. Təkcə bu ilin 8 ayında pensiya təminatı üzrə ötən ilin müvafiq dövrü ilə müqayisədə 576,5 milyon manat (24%) çox olmaqla 3 milyard manata yaxın vəsait yönəldilib. Eləcə də son bir ildə pensiyalarda 30%-dək artım qeydə alınmaqla orta aylıq pensiya 300, yaşa görə pensiyanın orta aylıq məbləği 25,2% çoxalaraq 330 manata yaxın olub.

Habelə cari ilin əvvəlindən pensiya yaşına çatan, lakin pensiya hüququ yaranmayan şəxslərə yaşa görə müavinət almaq hüququ verilib və artıq 20 mindən çox şəxs bu hüquqdan yararlanıb. Eyni zamanda ailə başçısını itirmiş ailələr üçün 2020-ci ilin əvvəlindən iki təminat növündən - ailə başçısını itirməyə görə pensiya və ya ailə başçısını itirməyə görə müavinətdən daha yüksək məbləğdə olanını seçmək, sağlamlıq imkanları məhdud uşaqlara sağlamlıq imkanları məhdudluğa görə müavinətlə birgə ailə başçısını itirməyə görə müavinəti və pensiyanı da almaq hüququ verilib.




Hazırda pensiya qanunvericiliyində nəzərdə tutulan köklü dəyişikliklər də vətəndaşların sosial təminat sahəsində hüquqlarının, pensiyaçıların sosial müdafiəsinin daha dolğun təminatına, onların daha üstün məbləğdə ödənişlər almalarına şərait yaradılmasına xidmət edir. Məsələn, hazırda aparılan islahatlar:

- pensiyaçının öz seçiminə uyğun olaraq hüququ olan istədiyi digər pensiya növünə, o cümlədən yaşa görə pensiyadan əlilliyə görə pensiyaya keçə bilməsinə imkan verilməsi;
- ailə başçısını itirmiş şəxsə hüququ yaranan, məbləği daha çox olan əmək pensiyası və ya sosial müavinəti seçmək hüququnun verilməsi;
- ailə başçısını itirməyə görə pensiya hüququ olan ailə üzvünün özünün pensiya və ya müavinət hüququ yarandığı həmin vaxta qədər aldığı, yeni ailə başçısını itirməyə görə onun payına düşən pensiya məbləğinin digər ailə üzvləri arasında bölüşdürülməsi;
- əmək şəraiti zərərli və ağır işlərdə çalışanların güzəştli pensiya təminatına əlçatanlığının artırılması;
- pensiyanın yenidən hesablanmasında pensiyaçıların mənafeyinə uyğun mexanizmin tətbiqi;
- pensiya təyinatları sahəsində proaktiv xidmətlərin genişləndirilməsi və pensiyanın yenidən hesablanmasının avtomatlaşdırılması və s. kimi istiqamətləri əhatə edir.

Onu da qeyd edək ki, hazırkı islahatlarla bağlı pensiya qanunvericiliyində nəzərdə tutulan dəyişikliklər layihəsində xüsusi şərtlərlə pensiya təyin olunmuş şəxslərin (hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və b.) pensiyaları ilə bağlı hər hansı təklif mövcud deyil.

Xüsusi şərtlərlə pensiya təyin olunmuş şəxslərin pensiya təminatı ilə bağlı hər hansı təşəbbüs və təkliflər olduqda həmin şəxslərin mənafeyinə, davamlı pensiya artımına xidmət edəcək. Bu məsələlərlə bağlı təkliflər olarsa, açıqlanaraq ictimai müzakirə şəraitində baxılacaq.

Hazırda aparılan islahatların məqsədi pensiya artımına, hər bir şəxsin layiqli pensiya təminatına yönəlib ki, bu da dövlətin sosial siyasətində əsas prioritetlərdən birini təşkil edir.

*"Azərbaycan"*



## İqtisadi sektorda orta aylıq nominal əməkhaqqı 21,7 faiz artmışdır

Cari il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 67,4 min nəfər və ya 4,2 faiz artaraq 1 milyon 681,2 min nəfər olmuşdur. Onlardan 909,8 min nəfəri iqtisadiyyatın dövlət, 771,4 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Dövlət Statistika Komitəsinin bununla bağlı yaydığı məlumatda bildirilir ki, muzdla işləyənlərin 19,5 faizi təhsil, 18,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,1 faizi sənaye, 8,4 faizi tikinti, 8,1 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi maliyyə və sığorta fəaliyyəti, 13,1 faizi iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 21,7 faiz artaraq 715,4 manata çatmışdır. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində isə orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

## 8 ayda əsas kapitala 8,6 milyard manatdan çox vəsait yönəldilib

Dövlət Statistika Komitəsi xəbər verir ki, bu ilin yanvar-avqust aylarında ölkə üzrə əsas kapitala 8 milyard 682,4 milyon manat, yaxud 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz çox vəsait yönəldilmişdir.

Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 19,0 faiz artmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 10,5 faiz azalmışdır. İstifadə olunmuş vəsaitin 5 milyard 829,5 milyon manatı (67,1 faizi) məhsul istehsalı sahələrinə, 2 milyard 30,6 milyon manatı (23,4 faizi) xidmət sahələrinə, 822,3 milyon manatı (9,5 faizi) yaşayış evlərinin tikintisinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 5 milyard 356 milyon manatını (61,7 faizini) daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 5 milyard 349,7 milyon manatı və ya 61,6 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 59,4, büdcə vəsaitləri 22,7, bank kreditləri 6,1, əhalinin şəxsi vəsaitləri 5,8, sair vəsaitlər 4, büdcədənkənar dövlət fondlarının vəsaitləri isə 2 faiz təşkil etmişdir.

## Qeyri-neft sənaye məhsullarının istehsalında 13,6 faiz artım qeydə alınıb

Bu ilin yanvar-avqust aylarında ölkədə 24,7 milyard manatlıq və ya 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 3,1 faiz az sənaye məhsulları istehsal edilmişdir.

Azalma neft-qaz sektorunda məhsul istehsalının 4,9 faiz aşağı düşməsi nəticəsində baş vermişdir. Sənayenin qeyri neft-qaz sektorunda isə məhsul istehsalı 13,6 faiz artmışdır.

Sənaye məhsullarının 60,7 faizi mədənçıxarma, 33,1 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 7,2 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 12,2 faiz artmışdır.

Emal sektorunda əczaçılıq məhsullarının istehsalı 9,5, metallurgiya sənayesi məhsullarının istehsalı 2,3 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 96,4 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 63, maşın və avadanlıqların istehsalı 50,4, ağacın emalı və ağacdan məmulatların istehsalı 39,5, tütün məmulatlarının istehsalı 38,7, kompüter, elektron və optik məhsulların istehsalı 36,8, geyim istehsalı 32, kağız və karton istehsalı 30,6, rezin və plastik kütlə məmulatlarının istehsalı 23,3, kimya sənayesi məhsullarının istehsalı 13,4, poliqrafiya məhsullarının istehsalı 11,9, toxuculuq sənayesi məhsullarının istehsalı 4,7, elektrik avadanlıqlarının istehsalı 3,4, neft məhsullarının istehsalı 2,2 faiz artmışdır.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 9,7 faiz artmış, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 1,7 faiz azalmışdır.

## Özünüməşğulluq proqramına cəlb edilən şəxslərə biznes-planların hazırlanmasında dəstək verilir

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi ilə əməkdaşlıq çərçivəsində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) özünüməşğulluq proqramına cəlb olunmuş vətəndaşlara biznes-planların hazırlanmasında kömək göstərir.

Avqust-sentyabr ayları ərzində KOBİA-nın Xaçmaz KOB İnkişaf Mərkəzinin mütəxəssisləri və Quba-Xaçmaz iqtisadi rayonu üzrə KOB dostları tərəfindən Xaçmaz, Quba və Qusar rayonlarından olan 70-dən çox vətəndaşa biznes-planların hazırlanması üçün məsləhət xidməti göstərilib.

Yaxın günlərdə Siyəzən və Şabran rayonlarından olan vətəndaşlara da özünüməşğulluq proqramı çərçivəsində biznes-planların hazırlanmasında dəstək veriləcək.

Nazirlər Kabinetinin 25 iyul 2020-ci il tarixli qərarına əsasən, Dövlət Məşğulluq Agentliyinin yerli qurumlarında işsiz və işaxtaran kimi qeydiyyata alınmış və özünüməşğulluq proqramına cəlb edilmiş şəxslər koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar 2020-ci ildə təlimlərə cəlb edilmədən natura şəklində material, avadanlıq və digər əmlakla təmin olunacaq. Həmin şəxslərə material, avadanlıq və digər əmlak tərtib etdikləri biznes-planlar əsasında veriləcək.

## Elektron Kredit Platformasına müraciətlər çoxalır

Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların dövlət zəmanətli krediti asan və şəffaf formada əldə etməsi üçün İqtisadiyyat Nazirliyi tərəfindən yaradılmış Elektron Kredit Platforması üzərindən müraciətləri davam edir.

İndiyədək Elektron Kredit Platforması üzərindən 765,3 milyon manat həcmində yeni biznes krediti sifarişi üzrə 2700-dən çox müraciət qeydiyyata alınıb. Artıq 253 müraciət üzrə ümumi həcmi 52,6 milyon manat olan kreditlərin ayrılması barədə qərar qəbul edilib. Hazırda digər müraciətlərə baxılır və müəyyən olunmuş müddətdə nəticələr barədə sahibkarlara elektron platforma vasitəsilə məlumat veriləcək.

Yeni biznes kreditlərinin Elektron Kredit Platforması vasitəsilə verilməsi sahibkarlara biznes kreditləri üçün onlayn rejimdə müraciət, müvəkkil kredit təşkilatları və İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondunda müraciətlərə eyni vaxtda baxılması və statusunun real vaxt rejimində izlənməsi, eləcə də 3 kredit təşkilatına eyni vaxtda müraciət imkanının yaradılması və s. bu kimi üstünlüklər yaradır. Bununla sahibkarların kreditlərə çıxış imkanları genişlənir, sərf olunan vaxta və xərclərə qənaət olunur.

Qeyd edək ki, biznes kreditlərinə dövlət zəmanətinin verilməsi və həmin kreditlər üzrə faizlərin subsidiyalaşdırılması mexanizminə əsasən, 500 milyon manat həcmində yeni biznes krediti portfelinin 60%-dək hissəsinə dövlət zəmanəti verilir, həmçinin həmin kreditlərin illik faiz dərəcəsinin 50%-i dövlət tərəfindən maliyyələşdirilir.

## AMB uçot dərəcəsini endirdi

Azərbaycan Respublikası Mərkəzi Bankının (AMB) İdarə Heyəti uçot dərəcəsinin 6,75 faizdən 6,5 faizə endirilməsi haqqında qərar qəbul etmişdir. Faiz dəhlizinin aşağı həddi 6, faiz dəhlizinin yuxarı həddi isə 7 faiz səviyyəsində müəyyən olunmuşdur.

AMB-nin yaydığı məlumatda bildirilir ki, bu qərar inflyasiyanı hədəf çərçivəsində saxlamaqla (4±2 faiz) məcmu tələbin dəstəklənməsinə və bununla da bərpa prosesinin sürətləndirilməsinə yönəldilmişdir. Uçot dərəcəsinin qəbul olunan səviyyəsi qısa və ortamüddətli dövrdə inflyasiya proseslərinin dinamikasını nəzarətdə saxlamağa imkan verir.

Faiz dəhlizinin parametrlərinə dair növbəti qərarlar qısa və ortamüddətli perspektivdə inflyasiya üzrə risk balansından, faktiki inflyasiyanın hərəkət trayektoriyasından, beynəlxalq konyunkturdan və valyuta bazarındakı vəziyyətdən asılı olaraq qəbul ediləcəkdir.

Məlumatda daha sonra açıqlanır ki, idarə heyətinin pul siyasətinə həsr olunmuş son iclasından keçən dövrdə illik inflyasiya hədəf diapazonunun mərkəzindən aşağıda qalmışdır. Zəif məcmu tələb şəraitində rəsmi statistikaya görə, avqust ayında qiymətlər 0,2 faiz azalmış, illik inflyasiya isə 2,8 faiz təşkil etmişdir. Aylıq deflyasiya, əsasən, ərzağın ucuzlaşması hesabına baş vermişdir. Mövsümi amillərin də təsiri ilə avqustda ərzaq qiymətləri 0,5 faiz aşağı düşmüşdür. Qeyri-ərzaq məhsulları və xidmətlərin qiymətləri isə inersion olaraq dəyişməmişdir. Ümumilikdə, faktiki inflyasiyanın dinamikası proqnozlara uyğun olmuşdur.

Real sektor müəssisələri üzrə monitorinqin nəticələri inflyasiya gözləntilərinin azalmaqda davam etdiyini təsdiqləyir. Avqustda ötən aya nəzərən inflyasiya gözləntiləri qeyri-neft sənayesi və xidmət sahələrində azalmış, tikinti və ticarət sektorlarında isə demək olar ki, dəyişməmişdir. Lakin aparılan sorğular inflyasiya gözləntilərinin xarici və daxili mühit amillərinə həssas olduğunu göstərir.

İnflyasiya proqnozu azaldılma istiqamətində təshih edilmişdir. Bunu şərtləndirən əsas amil iyul və avqust aylarında deflyasiya olmuşdur. Sentyabrda yenilənmiş proqnozlara görə, 2020-ci ilin sonuna inflyasiya 3-3,2 faiz diapazonunda gözlənilir ki, bu da hədəf diapazonunun mərkəzindən aşağıdır.

AMB eyni zamanda qeyd edir ki, xarici mühitdə vəziyyət qeyri-müəyyən olaraq qalır. Bir çox ölkələrdə karantin rejiminin qismən yumşaldılması ilə qlobal iqtisadi aktivlikdə müəyyən yaxşılaşma müşahidə edilsə də, epidemiyanın 2-ci dalğası gözləntiləri fonunda bərpa prosesi çox ləng gedir.

Sentyabrın əvvəlində dünya maliyyə bazarlarında, o cümlədən ticarət partnyoru olan ölkələrin valyuta bazarlarında dalğalanmalar yenidən yüksəlmişdir.

Dünya bazarında əmtəə qiymətləri üzrə də volatillik yüksəlmişdir. Avqustda brent markalı neftin orta qiyməti 45 ABŞ dolları olduğu halda, sentyabrın ötən dövründə 42,1 ABŞ dollarına enmişdir. Dünyanın bir çox ölkələrində karantin rejiminin qalması neftə tələbin davamlı bərpasına mane olur.

Aşağı neft qiymətlərinə baxmayaraq, ilin əvvəlindən ölkənin xarici ticarət balansı profisitli qalır ki, bu da strateji valyuta ehtiyatlarının artmasına şərait yaradır. Hazırda strateji valyuta ehtiyatları 51,4 milyard ABŞ dolları təşkil edir ki, bu da ilin əvvəli ilə müqayisədə 0,6 faiz çoxdur. Mərkəzi Bankın valyuta ehtiyatları ilin əvvəlindən 3,7 faiz artmışdır.

Monetar şəraitə gəldikdə isə, AMB bildirir: "Pandemiyanın davam etməsi şəraitində pul siyasəti qərarları və makroprudensial tənzimləyici güzəştlər kredit şərtlərini yumşaldır və iqtisadiyyatın likvidliyə olan ehtiyaclarının ödənilməsini təmin edir.

Pul bazası ilin əvvəlindən 1 faiz azalsa da, iyulun sonundan 3 faiz artmışdır. İlin son rübündə xəzinə hesabından dövlət xərcləri ilə bağlı pul bazasının artımının əhəmiyyətli sürətlənəcəyi gözlənilir. Lakin pandemiya şəraitində pul bazasının artımı məcmu tələbin genişlənməsi və kredit ekspansiyası ilə müşayiət olunmur.

Bank sistemində izafi likvidlik şəraitində Mərkəzi Bankın depozit əməliyyatları və qısamüddətli notları üzrə faiz dərəcələrinin, eləcə də dövlət qiymətli kağızlarının gəlirliyinin azalması müşahidə edilməkdədir. Depozit və kredit faizləri risk premiyası ilə yumşalan monetar şərait arasında tarazlaşmaqdadır.

Real faiz dərəcələrinin pozitiv qalması şəraitində fiziki şəxslərin müddətli əmanətləri avqust ayında artmışdır. Kredit qoyuluşlarında da son ayda artım davam etmişdir.

Ötən iclasdan bəri valyuta bazarında sabitlik qalmışdır. 2020-ci ilin dövlət büdcəsinin dürüstləşməsi ilə Neft Fondundan transfertlərin artırılması valyuta bazarında tarazlığa əlavə dəstək verəcəkdir".

Mərkəzi Bank məlumat verir ki, məhdudiyyətlərin nisbətən yumşalması ilə əlaqədar qeyri-neft sektoru üzrə iqtisadi azalma tempi nisbətən səngimişdir. Rəsmi statistikaya görə, cari ildə qeyri-neft sektoru üzrə ümumi daxili məhsulun real azalmasının dib nöqtəsi 2,5 faiz (6 ayın yekunu üzrə) olduğu halda 8 ayın yekunu üzrə 1,7 faiz olmuşdur.

Real sektor müəssisələrinin monitorinqi biznes inam indeksinin neqativ zonada qaldığını göstərsə də, əksər sahələr üzrə ötən aydakı tarixi minimumla müqayisədə artım müşahidə edilmişdir.

İlin qalan dövründə iqtisadi aktivlik kontrtsiklik fiskal siyasət, monetar yumşalma və sinxronlaşdırılmış antiböhran tədbirləri ilə dəstəklənəcəkdir.

Məlumatda həmçinin inflyasiya risklərindən bəhs olunur: "Risklər balansına təsir edən başlıca amil pandemiyanın gələcəyi ilə bağlı qeyri-müəyyənliklərin yüksək olaraq qalmasıdır. Xarici risklərə əsasən COVID-19-a ikinci yoluxma dalğası ehtimalının təsiri ilə neft qiymətlərinin daha kəskin aşağı düşməsi, bəzi tərəfdaş ölkələrdə resessiya və məzənnə dəyişiklikləridir. Bu meyillərin güclənməsi ilə inflyasiya gözləntilərinin dəyişməsi, habelə son illər, əsasən, fiskal kəsirin monetizasiyası nəticəsində yaranmış likvidliyin potensial təsirləri isə başlıca daxili risklərdir. Lakin mövcud kontrtsiklik makroiqtisadi çərçivə bu riskləri idarə etməyə əlavə imkanlar yaradır.

Faiz dəhlizinin parametrləri ilə bağlı növbəti qərarların qəbulu zamanı risklər balansındakı dəyişikliklər və makroiqtisadi sabitlik hədəfləri əsas götürüləcəkdir".

Sonda qeyd olunur ki, bu qərar 18 sentyabr 2020-ci ildən qüvvəyə minir. Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı 2020-ci il oktyabr ayının 30-da ictimaiyyətə açıqlanacaq və bununla bağlı mətbuat konfransı keçiriləcəkdir.

*"Azərbaycan"*

## İlin əvvəlindən 45,9 milyard manatlıqdan çox ÜDM istehsal olunmuşdur

İlin əvvəlindən ötən 8 ayda ölkədə 45 milyard 962,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 3 faiz az ümumi daxili məhsul istehsal olunmuşdur.

İqtisadiyyatın qeyri neft-qaz sektorunda əlavə dəyər 1,7, neft-qaz sektorunda 4,9 faiz azalmışdır.

ÜDM istehsalının 35,2 faizi sənaye, 11,2 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 7,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 6,1 faizi tikinti, 2,0 faizi informasiya və rabitə, 1,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 19,0 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-in 10,4 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 4611,7 manata bərabər olmuşdur.

## 3 sərhəd-keçid məntəqəsi arasında nəqliyyat əlaqəsi yaxşılaşacaq

Prezidentin 27 aprel 2020-ci il tarixli sərəncamına əsasən, Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən Azərbaycan-Rusiya Federasiyası dövlət sərhədində "Xanoba", "Şirvanovka" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun 4 zolağa genişləndirilməsi işləri aparılır.



Yol həm də yeni Bakı-Rusiya magistral avtomobil yoluna birləşəcək. Bununla da avtomobil yolu sərnişinlərin və ölkə ərazisindən ixrac olunan məhsulların 3 keçid məntəqəsi arasında paylaşdırılaraq daha da sürətli transfer rolunu oynayacaq.

Avtomobil yolunun 4 zolağa genişləndirilməsi məqsədilə 1C kateqoriyasına uyğun olaraq yol layihəsi hazırlanıb. Layihəyə əsasən avtomobil yolunun ümumi uzunluğu 23,4 kilometr, torpaq yatağının eni 21,6, hərəkət hissəsinin eni 15 metr, 0,4 metr bərkidici zolaq olmaqla çiyinlərin eni 2x2 metr təşkil edir.

Hazırda marşrutboyu mövcud örtüyün sökülməsi, torpaq yatağının təbii relyef səviyyəsinə qaldırılması və genişləndirilməsi, yolun genişləndirilməsi üzrə kommunikasiya xətlərinin köçürülməsi, svayların vurulması və torpaq işləri həyata keçirilir.

Layihə üzrə marşrutboyu Samur-Yalama beynəlxalq dəmir yolu xətti üzərində yol ötürücüsünün, Xan Arxı və Samur-Abşeron su kanalı üzərində 2 körpünün, həmçinin Xanoba ərazisində yerli yolla kəsişmədə avtomobil tunelinin tikintisi də aparılır.

"Xanoba", "Şirvanovka" və "Samur" sərhəd-keçid məntəqələri arasındakı avtomobil yolunun yenidən qurulmasının 2021-ci ilin sonuna kimi yekunlaşdırılması nəzərdə tutulur.

# Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin xatirəsi anılıb

18 Sentyabr - Milli Musiqi Günü tariximizə görkəmli bəstəkar, Azərbaycan professional musiqi sənətinin banisi, ensiklopedik biliyə malik musiqişünas alim Üzeyir bəy Hacıbəylinin doğum günü kimi həkk olunub. AZƏRTAC xəbər verir ki, bu münasibətlə sentyabrın 18-də mədəniyyət və incəsənət xadimləri Fəxri xiyabanda Üzeyir bəy Hacıbəylinin və digər musiqi xadimlərinin məzarlarını ziyarət ediblər.



Mərasimdə Mədəniyyət nazirinin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov, Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi və başqaları iştirak ediblər.

Tədbir iştirakçılarını musiqi bayramı münasibətilə təbrik edən A.Kərimov bildirib ki, bu gün sadəcə musiqisevərlərin deyil, həm də bütün Azərbaycan xalqının bayramıdır: “Bu gün dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin və onun yaxın dostu bəstəkar və dirijor Müslüm Maqomayevin 135 illiyini qeyd edirik. Xalqımızın ölməz sənətkarları arasında Üzeyir bəy Hacıbəylinin böyük yeri var. O, Azərbaycan xalqının mənəvi qüdrətinin böyük timsalıdır. Qarabağda, “Qafqazın konservatoriyası” adlanan Şuşada anadan olması Üzeyir bəy üçün ilk məktəb olub. Onun əsərləri bəstəkarlar üçün böyük nümunədir. Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış bəstəkardır. O, öz əsərlərində Şərq və Qərb musiqisinin vəhdətini yaradıb. Üzeyir bəy istedadlı bəstəkarlar, musiqişünaslar nəsli yetişdirib. Onun rəhbərliyi altında Azərbaycanda bəstəkarlıq məktəbi yaradılıb. Böyük bəstəkarın doğum gününün bayram kimi qeyd edilməsi ənənəsini Ulu Öndər Heydər Əliyev qoyub. Ümummilli Liderimizin 1995-ci ildə - dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı fərmanla hər il sentyabrın 18-i ölkəmizdə Milli Musiqi Günü kimi qeyd olunur. Artıq neçə ildir, xalqımız bu bayramı qeyd edir. Bu, bir daha Heydər Əliyevin bizim mədəniyyət xadimlərinə göstərdiyi qayğının bariz nümunəsidir. Heydər Əliyevin mədəniyyət xadimlərinə göstərdiyi qayğının davamı kimi Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı da göz qabağındadır. Onların rəhbərliyi ilə bir neçə dəfə Üzeyir bəy Hacıbəylinin yubileyi UNESKO səviyyəsində qeyd edilib. 2009-cu ildən etibarən Heydər Əliyev Fondu Mədəniyyət Nazirliyi ilə birgə Azərbaycanda Üzeyir bəy Hacıbəyli adına festival keçirir. Bu festivala dünyanın bir sıra tanınmış musiqiçiləri cəlb edilib. Təəssüflər olsun ki, bu il pandemiyaya görə biz bu festivalı keçirə bilmirik. Buna baxmayaraq, festivalı davamlı etmək üçün ötən illərin ifalarını televiziyada göstərmək qərarına gəldik. Bu gün həm də bəstəkar Müslüm Maqomayevin yubileyidir. Üzeyir bəy Hacıbəyli M.Maqomayevi əsl xalq ruhlu, yenilikçi sənətkar hesab edirdi”.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə “Üzeyir bəy Hacıbəyli” fəxri medalının təsis edildiyini bildirib: “Onun ilk nüsxəsi Birinci vitse-prezident Mehriban Əliyevaya təqdim edilib. Çünki Mehriban xanım uzun illərdir davam edən “Üzeyir dünyası” nəşrinin təsisçisi, sponsoru və ilhamverici gücüdür. Bəstəkarlar İttifaqı olaraq Üzeyir bəy Hacıbəyli festivalında fəal iştirak etmişik, maraqlı elmi konfranslar keçirmişik. Çalışmışıq ki, Üzeyir bəyin təkcə musiqisini yox, həm də onun alim olaraq kəşflərini və tapıntılarını gənclərə çatdıraq”.

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli deyib ki, Üzeyir bəyin musiqisi hər zaman bizimlədir. Onun yaratdıqları bütün zamanlarda yaşayacaq. Musiqimizin uğurları Üzeyir bəylə bağlıdır. Azərbaycan musiqisinin bu səviyyəyə gəlib çatması onun dühasının məhsuludur. Üzeyir bəy hər yerdə var və onun əsərləri hər zaman sevilə-sevilə dinlənilir.

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti Siyavuş Kərimi də çıxış edərək dahi bəstəkar haqqında ürək sözlərini söyləyib: “Biz Üzeyir bəyin qoyduğu ənənələrə sadiq qalaraq musiqimizi inkişaf etdirməli və onu yad təsirlərdən qorumalıyıq”.

Sonda Azərbaycan Dövlət Xor Kapellasının ifasında Üzeyir bəy Hacıbəylinin “Leyli və Məcnun” operasından “Şəbi-hicran” kompozisiyası səsləndirilib.

# Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi Üzeyir bəy Hacıbəylinin doğum günü ilə əlaqədar “açıq qapı” günü keçirir

Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin vaxtilə iş otağının yerləşdiyi Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) inzibati binasında bəstəkarın anadan olmasının ildönümü və Milli Musiqi Günü ilə əlaqədar “açıq qapı” günü keçirilir. Məqsəd Azərbaycan musiqisinin məbədi olan Şuşa şəhərinin işğalına, Ermənistanın Azərbaycan torpaqlarına qarşı təcavüzünün davam etməsinə diqqət çəkməklə yanaşı, belə bir otağın varlığı barədə Azərbaycan ictimaiyyətini məlumatlandırmaqdır.





AZƏRTAC xəbər verir ki, əvvəlcə xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq açılış mərasimi təşkil edilib. BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev hazırda qurumun yerləşdiyi binada ilk olaraq Bakı Musiqi Akademiyasının fəaliyyət göstərdiyini deyib və bir çox Bakı sakininin Üzeyir bəy Hacıbəylinin bu otaqda işləməsindən xəbərsiz olduğunu bildirib. “Bakının arxitekturası gözəldir, mərkəzi küçələri tarixi binalarla zəngindir. Lakin bir çox insan, tarixçilər, araşdırmaçılar bu otağın varlığından xəbərsizdirlər. Biz düşündük ki, bunu müəyyən mənada təbliğ etməliyik. Təşkil etdiyimiz tədbir həm də siyasi xarakter daşıyır. Azərbaycanın bir çox mədəniyyət xadimləri, o cümlədən dahi bəstəkar Üzeyir bəy Hacıbəyli Şuşada anadan olublar. Təəssüf ki, bu şəhər Azərbaycanın bir sıra digər rayonları ilə birlikdə işğal altındadır. Bizim mərkəz beynəlxalq məsələlərlə məşğuldur və ən əsas işimiz Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlıdır. Biz bu əlamətdar gündən yararlanaraq və bu otağı simvolik olaraq seçərək həm Azərbaycan, həm də dünya ictimaiyyətinin diqqətini Azərbaycanın işğal olunmuş torpaqlarına çəkmək və işğal faktı ilə heç zaman barışmayacağımızı bəyan etmək istəyirik. Azərbaycanda həm hərbi, həm siyasi istiqamətdə münaqişənin həlli ilə bağlı müəyyən işlər görülür. Bizim də elmi istiqamətdə fəaliyyətimiz işğal olunmuş ərazilərimizin boşaldılması və əhalinin öz yurd-yuvalarına qayıtması ilə bağlıdır”, - deyə Fərid Şəfiyev əlavə edib.

“Dağlıq Qarabağın Azərbaycanlı İcması” İctimai Birliyinin İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Tural Gəncəliyev belə bir tədbirin təşkilinə görə BMTM-ə təşəkkür edib və bildirib ki, Üzeyir bəy Hacıbəyli öz əsərləri ilə Azərbaycanı dünya miqyasında tanıdan şəxsiyyətdir. O qeyd edib ki, Üzeyir bəy Hacıbəyli qarabağlı və şuşalı olaraq daim xalqımızın qəlbində yaşayır və onun yaradıcılığı Azərbaycanın necə istedadlı insanlar yetişdirdiyini dünyaya sübut edir.

Tural Gəncəliyev Şuşa ilə ailə bağlarının olduğunu deyərək Üzeyir bəy Hacıbəylinin onun həyatında da dərin izlər buraxdığını diqqətə çatdırıb.

Mərasimdə Mədəniyyət Nazirliyinin nümayəndəsi də iştirak edib.

Qeyd edək ki, şəhər sakinlərinin iş otağına baxışı xüsusi karantin rejiminin tələblərinə uyğun şəkildə həyata keçirildi.

Xatırladaq ki, BMTM bir zamanlar Bakı Musiqi Akademiyasının, Asəf Zeynallı adına Musiqi Kollecinin yerləşdiyi binada fəaliyyət göstərir. Tarixi bina 1885-ci ildə tikilib. Bir müddət Üzeyir bəy Hacıbəylinin bu binada iş otağı yerləşib. Təxminən 10 il əvvəl uzun müddət boş olan iş otağı Üzeyir bəy Hacıbəylinin ev-muzeyindəki iş otağına bənzər şəkildə tərtib olunub.

# Qubada yaşayan dağ yəhudiləri Roş-Ha-Şana bayramını qeyd edirlər




Bütün dünya yəhudiləri kimi, Qubadakı Qırmızı qəsəbə sakinləri də yəhudi təqviminə görə 5781-ci ili qarşılayırlar. Roş-Ha-Şana bayramının vaxtı təqvimə görə dəyişsə də, hər il əsasən sentyabr ayına təsadüf edir.

Quba Rayon İcra Hakimiyyətinin Qırmızı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Pisax İsakov AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində bildirib ki, bu il COVID-19 pandemiyası ilə əlaqədar kütləvi bayram tədbirləri, dini ayinlər keçirilməsə də, qəsəbədə hər kəs öz ailəsi, doğmaları ilə bu bayramı qeyd edir.

Yəhudi təqvimi ilə Yeni ilin başlanğıcı sayılan bayram günündə qəsəbə sakinləri dualar oxuyur, ehtiyacı olanlara əl tutur, Tanrıdan günahlarının bağışlanmasını diləyirlər. Bayram süfrəsində dadlı təamlarla yanaşı, dəyirmi doğranmış yerkökü, balıq başı, nar, alma və balın olması vacibdir. Dəyirmi formada doğranmış yerkökü qızıl pulu, var-dövləti, süfrədəki balıq başı ailə başçısını, ailənin böyüyünü simvolizə edir. Bayram təamlarını dadarkən alma bala batırılaraq yeyilir ki, ilboyu ailədə şirinlik, isti münasibət hökm sürsün. Dənələnmiş nar isə ailənin böyüməsinə, yeni doğulacaq uşaqlara işarədir.

Qırmızı qəsəbə sakini Raxmil Samailov bildirib ki, yeni ilin ilk 10 günündə yəhudilər müxtəlif dini ayinləri yerinə yetirir, tövbə edir, müqəddəs “Tövrat” oxuyurlar. Onuncu gündə isə bütün sutkanı ac qalmaqla oruc tutur və müqəddəs “Yom Kipur” gününü qeyd edirlər.

Dağ yəhudilərinin Qubada məskunlaşması XVIII əsrin ortalarına təsadüf edir. Fətəli xanın Quba xanlığına rəhbərlik etdiyi dövrlərdə bütün ətraf ərazilərdə yaşayan yəhudilər bura köçməyə başlayıblar. Həmin vaxt salınan yəhudi məhəllələrində 10-dan çox sinaqoq inşa olunub. Uzun illərdir buradakı yəhudilər azərbaycanlılarla birlikdə, sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Qırmızı qəsəbə dünyada İsraildən sonra yəhudilərin yığcam yaşadığı nadir məkandır. “Qafqazın Yerusəlimi” adlandırılan qəsəbədə məskunlaşan yəhudilər uzun illərdir öz adət-ənənələrini yaşadırlar. Burada yəhudilərin dini icması və milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

Roş-Ha-Şana bayramı dünyanın müxtəlif məkanlarında yaşayan bütün yəhudilər tərəfindən təntənəli şəkildə keçirilir.

Unudulmazlar

# Azərbaycan şərqşünaslıq elminin korifeyi

Görkəmli alim, professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslıq elminin beynəlxalq aləmdə tanınmasında misilsiz xidmətləri ilə yadda qalmışdır. Onun adı şərqşünaslıq, eləcə də qərbşünaslıq problemlərini Şərq-Qərb münasibətləri kontekstində tədqiqata cəlb edən, şərqşünaslığımızda yeni elmi təhlil istiqamətini müəyyənləşdirən, bu sahədə ilk dəfə müqayisəli metodun tətbiqi ilə tədqiqatların effektivliyini artıran, ümumilikdə yeni şərqşünaslıq məktəbinin əsasını qoyan alim kimi elm tariximizə qızıl hərflərlə yazılmışdır.



Aida xanım ölkəmizdə ərəbşünaslıq üzrə ilk qadın elmlər doktoru, professor kimi ixtisaslı kadrların hazırlanmasında böyük xidmətlər göstərmişdir. Professor gərgin əmək, zəngin bilik, istedad və təcrübə hesabına yazdığı “Yeni ərəb ədəbiyyatının korifeyləri”, “Ərəb-rus mədəni və ədəbi əlaqələrinin mənbələri”, “Rus ədəbi tənqidi fikri və M.Nüaymənin yaradıcılığı”, “Əmin ər-Reyhaninin yaradıcılığında təbiət”, “ər-Reyhaninin “Hərəmxananın xaricində” povestində və kiçik nəsr əsərlərində romantizm”, “Qələmlər cəmiyyəti” üzvlərinin yaradıcılığında yeni təmayüllər haqqında”, “Qələmlər cəmiyyəti” və Mixail Nüaymə”, “Cübran Xəlil Cübran”, “İspaniyada ərəb ədəbiyyatının yaranması və inkişafı tarixinə dair” və digər monoqrafiya və məqalələri Azərbaycan ərəbşünaslıq elminin inkişafında mühüm rol oynamışdır. O, ərəb mühacirət ədəbiyyatı ilə yanaşı, Azərbaycan-ərəb, rus-ərəb və Qərb-ərəb ədəbi əlaqələri haqqında sanballı elmi əsərlər yazmış, nüfuzlu beynəlxalq konfranslarda elmi ictimaiyyətin diqqətini cəlb edən məruzələrlə çıxış etmiş, xarici ölkələrdə Azərbaycan şərqşünaslıq elmini ləyaqətlə təmsil etmiş, Ümumittifaq Şərqşünaslıq Cəmiyyəti Rəyasət Heyətinin və Şərq Ədəbiyyatının Tədqiqi üzrə Ümumittifaq Əlaqələndirmə Şurasının üzvü olmuşdur.

Aida xanım ərəb ədəbiyyatı nümunələrinin Azərbaycan dilinə tərcüməsi sahəsində də qələmini sınamışdır. Mixail Nüaymə, Süheyl İdris, Sahib Camal, Məhəmməd Dib, Macid Zeyyib Qənəma və digər yazıçılardan etdiyi tərcümələr onun Azərbaycan və ərəb dillərinin incəliklərinə bələdçiliyindən, yüksək bədii zövqə sahib olmasından və peşəkar tərcüməçilik qabiliyyətindən xəbər verir. Bununla belə, Aida xanım, ilk növbədə, şərqşünaslıq elmimizin korifeyi kimi diqqəti cəlb edir.

Professor Aida İmanquliyevanın şərqşünas kimi fəaliyyətinin mərkəzində hər şeydən əvvəl probleme müqayisəli, elmi-fəlsəfi və tarixi-tipoloji baxış dayanır. Bu cür baxış və yanaşmanın nəticəsində Azərbaycan şərqşünaslıq elmi beynəlxalq arenaya çıxmış və bir sıra vacib problemlərin həllinə nail olmuşdur.

Qeyd etmək lazımdır ki, professorun xidmətləri sayəsində şərqşünaslığımız ədəbiyyat tarixçiliyi sərhədlərini aşaraq daha qlobal, daha vacib problemlərin araşdırılmasına istiqamətlənə bilmişdir. Aida xanımın bu təşəbbüsü, bir tərəfdən, birbaşa olaraq Azərbaycan şərqşünaslıq elmində ilk dəfə nəzəri-estetik baxımdan ərəb-rus, ərəb-Qərb tədqiqat istiqamətlərini meydana gətirmiş, digər tərəfdən isə aparılan araşdırmalar ərəb-rus, ərəb-Qərb ədəbiyyatlarının, geniş mənada mədəniyyətlərinin müqayisəli, həm də fundamental şəkildə öyrənilməsini təmin etmişdir. Aida İmanquliyeva “Qərb üçün şərqşünas, Şərq üçün qərbşünas alim” (S.Xəlilov) statusunda ərəbşünaslığın ədəbi-bədii dəyərlərini Şərq-Qərb estetik-fəlsəfi meyar və baxışları müstəvisində araşdırmaqla şərqşünaslığımız üçün yeni nəzəri təhlil və tədqiqat sistemi yaratmışdır. Məlum olduğu kimi, ərəbşünaslıq sahəsində əvvəlki tədqiqatlarda Qərbin Şərqə təsiri məsələlərinə daha çox önəm verilirdi. Lakin professor Aida İmanquliyeva ilk dəfə olaraq elmi məsələlərə Şərq-Qərb problemləri kontekstində aydınlıq gətirərkən Qərb dəyərlərini obyektiv qiymətləndirir, ədəbi-bədii, mədəni-mənəvi təsir məsələlərindən danışarkən birtərəfli təsirə yox, qarşılıqlı təsirə xüsusi önəm verirdi. Bu cəhət alimi, bir tərəfdən, ərəbşünaslıqda fundamental araşdırmalar və nəzəri mülahizələr müəllifi kimi səciyyələndirir, digər tərəfdən isə Azərbaycan şərqşünaslığında, geniş mənada Azərbaycan elm tarixində onun milli ruha bağlı vətəndaş-alim mövqeyini nümayiş etdirirdi. Çünki professor Aida İmanquliyeva Avropa dəyərlərini nə qədər yüksək qiymətləndirsə də, ənənə prinsipləri daxilində insan və cəmiyyətlə bağlı bir çox məsələlərin təməlində Şərq mahiyyətinin dayandığını yaxşı dərk edir, təbii olaraq bu məsələnin üstündən sükutla keçməyi qeyri-mümkün sayırdı. Bildiyimiz kimi, tarixin sonrakı inkişaf dövrlərində formalaşmış Qərb mədəniyyət qütbü bir sistem kimi təsdiqini tapsa da, özünün mahiyyətindəki Şərq ilkinliyini, Şərq ruhunu, bütövdən (Şərqdən) ayrılma əlamətlərini gizlədə bilməmişdir. Balzak, Göte, Volter, Bayron, Russo, Monteskyö, Tolstoy, Puşkin, Yesenin və başqa Qərb mədəniyyət və mənəviyyat nəhənglərinin yaradıcılığında (geniş mənada Qərb mədəniyyətində) gizlənən Şərq sevgi elementləri əslində gözlə görünə bilməyən, lakin hiss olunan, ruhla duyulan Şərq ilkinliyinin təsiri və hansı formadasa özünütəsdiqidir. Bu mənada professor Aida İmanquliyeva yeni ərəb ədəbiyyatının tanınmış simalarından olan Əmin ər-Reyhani, Cübran Xəlil Cübran, Mixail Nüaymə və İlya Əbu Madinin, eləcə də İspaniyada ərəb ədəbiyyatını formalaşdırmış bir çox sənətkarın yaradıcılığından danışarkən problemi Qərb-Şərq dəyərləri baxımından təhlilə cəlb etsə də, “tarixin başlanğıcına təkan verən Şərq” (Hegel) ənənəviliyinin yeni dövr dünya mədəniyyətində yerini, rolunu və əhəmiyyətini xüsusi qiymətləndirirdi. Görkəmli şərqşünas alim bütün bunlarla yanaşı, XIX əsrdən başlayaraq Qərb həyat tərzi və mədəniyyətinin Şərqə təsiri və nüfuzunu konkret tarixi şəraitə uyğun izah edirdi. Professor bu məsələdə, ilk növbədə, diqqəti Amerika və Avropa ədəbiyyatı nümunələrinin ərəb dilinə tərcümə olunmasına və mütərəqqi ərəb yazarlarının həmin regionlara mühacirət etməsinə yönəldirdi. Alim ərəb mühacirət ədəbiyyatı problemlərinə dair tədqiqatlarında haqlı olaraq Qərbə mühacirətin kökündə siyasi amillərlə yanaşı, mədəni amillərin təsirini xüsusi vurğulayırdı: “Avropa ədəbiyyatının ərəb dilinə tərcüməsi Qərb həyat tərzinin təbliğini və Qərbə mühacirət ideyasının cazibəsini qüvvətləndirirdi”.

Alim Cübran Xəlil Cübran, Əmin ər-Reyhani, Mixail Nüaymə və digər sənətkarların yaradıcılığında tarixi-ədəbi, fəlsəfi və ictimai xarakterli mövzuların üstünlük təşkil etməsini ədəbiyyatın yeni tarixi dövrə keçidi kimi səciyyələndirərkən təhlilini, ilk növbədə, müasir Avropa (geniş mənada Qərb) mədəniyyəti və ədəbiyyatının standartları çərçivəsində aparırdı. Lakin bu halda da şərqşünas alimin yeri gəldikcə ərəb modernist ədəbiyyatında milli-ənənəvi xüsusiyyətləri diqqətdən kənarda saxlamaması bu ədəbiyyatın Şərq ruhunun sonrakı ədəbi prosesdə mühafizə olunduğunu təsdiqləyir, onun yeri və rolu barədə fikir formalaşmasına xidmət edir.

Professor Qərbə mühacirət etdikdən sonra “Qələmlər cəmiyyəti”ndə toplaşmış modernist ərəb yazıçılarının klassikaya və müasirliyə münasibətini düzgün qiymətləndirir, onların yaradıcılığı üçün səciyyəvi olan yeni çalarları üzə çıxarır, Hegel fəlsəfəsinə uyğun olaraq bədii yaradıcılığa estetik predmet kimi baxırdı: “Əlbəttə, “Qələmlər cəmiyyəti”nin üzvləri klassik ədəbiyyatı öyrənir, əhəmiyyətini dərk edir, onun ayrı-ayrı nümayəndələrinin yaradıcılığını yüksək qiymətləndirirdilər. Onlar etiraf edirdilər ki, onların əsərləri bir çoxları üçün daim ilham mənbəyi olaraq qalacaqdır. Bununla yanaşı, mühacir yazıçılar ədəbiyyatda yeni orijinal yollar axtarırdılar. Vətəndə müraciət etdikləri böyük həcmli formalar burada tez-tez dəyişən, şəraitə cavab verə bilən, aktuallığı ilə fərqlənən və qəzetlər üçün daha çox əlverişli olan kiçik novellalarla, məqalələrlə, şeir parçaları ilə əvəz olunurdu”. Professor Aida İmanquliyeva mühacir ərəb yazıçıları Cübran Xəlil Cübran, Mixail Nüaymə, Əmin ər-Reyhani və başqalarının irsindən danışarkən onların yaradıcılığında Qərb mövzuları ilə yanaşı, ənənəvi Şərq mövzularının da yer aldığını qeyd edir. O, bu məntiqinin davamı olaraq Mixail Nüaymənin novellalarında ənənəvi Şərq nağıl motivlərinin, Əmin ər-Reyhani və Cübran Xəlil Cübranın şeirlərində Şərq aforizmlərinin yer almasını yeni modernist ərəb ədəbiyyatında özünü mühafizə edə bilmiş Şərq ənənəsinin elementləri kimi təqdim edir: “Mövzuları çox rəngarəng olan bu əsərlərin əsas ideyası ədalətin, məhəbbətin və gözəlliyin kəşfidir. Məsələn, Cübran hansı mövzuya toxunursa-toxunsun, onun ədalətsizliyə qarşı üsyankar ruhu, xeyirxahlığa və gözəlliyə rəğbəti hər bir əsərdə açıq-aydın hiss olunur”.

Professor Aida İmanquliyevanın yeni dövr ərəb ədəbiyyatının janr və metod problemləri ilə bağlı araşdırmaları onun ərəbşünaslığa verdiyi böyük töhfədir. Alim fakt və nəzəri mülahizələr əsasında “Qələmlər cəmiyyəti”nin ilk dəfə olaraq ərəb ədəbiyyatına yeni bədii metod - tənqidi realizm metodu gətirdiklərini qeyd edir və bundan sonrakı mərhələdə ərəb ədəbiyyatının keçdiyi yolun elmi-nəzəri təhlilini verir. Bu məqamda Aida xanım rus və Qərb ədəbiyyatlarının görkəmli nümayəndələrindən Puşkin, Turgenev, Dostoyevski, Çexov, Tolstoy, Korolenko, Uilyam Bleyk, Ralf Emerson, Uolt Uitmen və başqalarının simasında ərəb ədəbiyyatına təsirin forma və məzmun xüsusiyyətlərindən geniş bəhs edir. Biz burada təsirin ümumi mənzərəsi ilə yox, Şərq və Qərb ədəbiyyatları fonunda ədəbiyyatdaxili proseslərin elmi mahiyyəti ilə tanış oluruq. Professor Səlahəddin Xəlilov haqlı olaraq qeyd edir ki, “Aida xanım İmanquliyevanın ədəbi proseslər haqqında tədqiqatı empirik səviyyə ilə məhdudlaşmayaraq nəzəri-konseptual dərinliklərə endiyindən burada ədəbi-bədii məsələlər fəlsəfi məzmun kəsb edir”. Təbii olaraq professor Aida İmanquliyevanın yeni metod daxilində ərəb ədəbiyyatında formalaşan yeni janrlara münasibəti də kifayət qədər konseptualdır. Şərqşünas alimin yeni ərəb ədəbiyyatında Əmin ər-Reyhani, Mixail Nüaymə, Cübran Xəlil Cübran və digər sənətkarlar sayəsində vətəndaşlıq hüququ qazanmış mənsur şeir, novella, hekayə, tarixi roman kimi ədəbi janrların poetik xüsusiyyətləri, bu janrların yeni ərəb ədəbiyyatının rəngarəng çalarlar qazanmasına təsiri barədə fikirləri yeni ərəb ədəbiyyatının daxili inkişaf mənzərəsi ilə yanaşı, onun Qərb-Şərq bağlılığı məsələlərinə xeyli aydınlıq gətirir.

Tədqiqatçı qeyd edirdi ki, mənsur şeir mühacir ədiblərin ən çox sevdikləri janrlardan idi: “XIX-XX əsrlərin qovuşduğu dövrdə ərəb ədəbiyyatında tarixi roman janrı necə tipik, sonralar hekayə-novella Misir modernistləri üçün necə xarakterik idisə, mənsur şeir də mühacir ərəb ədibləri üçün eləcə səciyyəvi idi”. Alim bu fikri irəli sürməklə, bir tərəfdən, vahid mədəniyyət hadisəsi tipində Qərb-Şərq ədəbi təsir və əlaqələrini ortaya çıxarır, digər tərəfdən isə, akademik Kraçkovski məktəbinin nəzəri mülahizələrini genişləndirir.

Professor Aida İmanquliyevanın elmi irsi Qərb-Şərq ədəbi düşüncə və əlaqələrinin öyrənilməsində, ərəb mühacirət ədəbiyyatına dair konseptual məsələlərə aydınlıq gətirilməsində, ümumən şərqşünaslıq problemlərinin araşdırılmasında fundamental mənbə olacaq, gələcəkdə də aktuallığını itirməyəcəkdir.

***Elman QULİYEV,***
***filologiya üzrə elmlər doktoru, professor***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
### *açıq tenderə dəvət edir*

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin beynəlxalq standartlara uyğun rəsmi internet səhifəsinin "**sosial.gov.az**" yeni dizaynda yaradılması işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları bənzər işlərdə təcrübə və kadr imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:** LOT üzrə 100 (bir yüz) manat
**Satınalan təşkilat:** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
**VÖEN:** 1700093011
**Bank:** Dövlət Xəzinədarlığı Agentliyi
**KOD:** 210005
**MÜXBİR HESABI:** AZ41NABZ01360100000000003944
**VÖEN:** 1401555071
**SWIFT** BIK CTREAZ22
**H/HESABI:** AZ80CTRE00000000000002138501
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir (büdcə və ya fərdi sahibkarlarla müqavilələrin surətləri, layihənin həyata keçirilməsində iştirak edəcək işçilərin CV və mövcud sertifikatlar);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.10.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **19.10.2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.10.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərişıq"ASC-nin Tender komissiyası tərəfindən 30.07.2020-ci il tarixdə LOT-1 Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiyası ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kv-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin (1-ci mərhələ). LOT 2 Şamaxı rayonunda 110/35/10 kV-luq Şamaxı yarımstansiyası ilə yeni tikilmiş 35/10 kV-luq Yeni yarımstansiya arasında 35 kv-luq iki dövrəli SİP kabel xəttinin tikintisi işlərinin (2-ci mərhələ) satın alınması məqsədilə elan edilmiş iki LOT-dan ibarət açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən **etender.gov.az** saytında 16.03.2020-ci il tarixdə elan edilmiş "İçməli su" xidmətinin kotirovka prosedurunun qalibi "Kristal LTD" MMC müəyyən edilmişdir.

"Azərpoçt" MMC və "Kristal LTD" MMC arasında 16.09.2020-ci il tarixdə kotirovka müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi tərəfindən pensiya işlərinin arxivləşdirilməsi üzrə müvafiq sənədlərin elektronlaşdırılması işlərinin satın alınması ilə əlaqədar keçirilmiş açıq tender prosedurunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Açıq tenderin nəticələri haqqında Tender komissiyasının qərarına əsasən, "Quadra" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatı

18.09.2020-ci il, Bakı - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 107.1.1-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 15 sentyabr 2020-ci il tarixli qərarına müvafiq olaraq, könüllü müraciət əsasında Əliyev Əlimməmməd Nadir oğluna sığorta agenti fəaliyyətinə verilmiş 13 fevral 2013-cü il tarixli 000868 nömrəli lisenziya ləğv edilmişdir.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 12 sentyabr 2020-ci il tarixdə elan edilmiş GPON (Giqabit İmkanlı Passiv Optik Şəbəkə) Texnologiyasının tətbiqi ilə mənzillərin telefonlaşdırılması, LTE (Simsiz Telefon Rabitəsi) tətbiqi ilə baza stansiyalarının quraşdırılması və şəbəkənin genişləndirilməsi məqsədi ilə iş və xidmətlərin satın alınması üzrə elan edilmiş açıq tender ləğv edilmişdir.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 11 avqust 2020-ci il tarixli nömrəsində və dövlət satınalmalarının vahid internet Portalında (**https://www.etender.gov.az**) Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən dərc edilmiş elanlar üzrə keçirilən 2 LOT-dan ibarət təkliflər sorğusunda Su nasosu üçün təmir materialının satın alınması üzrə "Hydrotech" MMC qalib olmuşdur.

Qalib şirkətlə 16 sentyabr 2020-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
### *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

*"Azərmətbuatyayımı" ASC* (012) 440-46-94, (070) 244-17-34
*"Azərpoçt" ASC* (012) 598-49-55, (051) 225-02-13
*"Qaya" firması* (012) 564-63-45, (050) 214-04-05
*"Kaspi" MMC* (012) 432-39-55, (012) 510-82-24
*"Region Press" MMC* (055) 316-79-01, (050) 316-79-01
*"Səma-M" MMC* (012) 594-09-59
*"Ziya" LTD* (012) 497-76-96, (050) 306-77-22
*"Pressinform" MMC* (012) 598-49-52, (070) 340-01-00
*"City press" MMC* (055) 819-09-26

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə

20 oktyabr 2020-ci il saat 11:00-da "Bakı Sığorta" ASC-nin Yasamal rayonu, A.M.Şərifzadə küçəsi 315C ünvanında yerləşən inzibati binasında cəmiyyətin səhmdarlarının növbədənkənar Ümumi Yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi, əlavə məlumat, o cümlədən səhmdarların Ümumi Yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə, həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət etmək olar.

Ünvan: Bakı şəh., Yasamal rayonu, A.M.Şərifzadə küçəsi 315C.

***İdarə Heyəti***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin nəzdində fəaliyyət göstərən Peşə Təhsil Mərkəzində və Sənaye Parkında daxili və xarici dizayn-tərtibat işlərinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 14 sentyabr 2020-ci il tarixli qərarına əsasən, "Reklamda Özünü Tənzimləmə Agentliyi" MMC qalib elan edilmişdir. Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## Suriyada qanunsuz silahlı dəstələrin tərkibində iştirak etməkdə təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbiri seçilib

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən beynəlxalq terrorçuluqla mübarizə istiqamətində kompleks əməliyyat-istintaq tədbirləri davam etdirilir.

DTX-nin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, araşdırmalar nəticəsində Azərbaycan Respublikasının vətəndaşı Əhmədov Amil Mehman oğlunun 2016-2019-cu illər ərzində ölkə hüdudlarından kənarda terror aktlarının törədilməsi ilə müşayiət olunan, dini məzhəbləri yaymaq adı altında, dini düşmənçilik zəminində aparılan silahlı münaqişələrdə iştirak etmək məqsədilə Suriya Ərəb Respublikasının Hələb şəhərinin Leroman qəsəbəsində xüsusi hazırlıq düşərgəsində təlimlər keçməsinə, müxtəlif odlu silah və partlayıcı qurğulardan istifadə qaydalarına yiyələnərək "Ceyşullah" və digər qanunsuz silahlı dəstələrin tərkibində Hələb, Hama və İdlib şəhərlərində silahlı münaqişələrdə iştirakına əsaslı şübhələr müəyyən olunub.

Amil Əhmədov sonradan gizli yollarla üçüncü dövlətin ərazisinə keçib.

Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2020-ci il sentyabrın 7-də Amil Əhmədov şübhəli şəxs qismində saxlanılıb, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 283-1.3-cü (Azərbaycan Respublikasının hüdudlarından kənarda silahlı münaqişələrdə iştirak etmək məqsədilə sabit qruplar yaratmaq, həmin qruplarda, təlimlərdə və ya silahlı münaqişələrdə iştirak etmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cinayət məsuliyyətinə cəlb olunaraq, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə araşdırmalar davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin rəhbərliyi, deputatlar, parlament Aparatının və İşlər İdarəsinin kollektivləri deputat Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev və komitə üzvləri Məlahət İbrahimqızı, Ziyad Səmədzadə, Jalə Əliyeva, Rauf Əliyev, Sevinc Hüseynova, Səttar Möhbalıyev, Vüqar Bayramov, Aqil Məmmədov, İlham Məmmədov, Soltan Məmmədov, Əziz Ələkbərov, Arzu Nağıyev Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Tahir Mirkişili, Əli Məsimli, Mahir Abbaszadə, Elnur Allahverdiyev, Vüqar Bayramov, Məzahir Əfəndiyev, Vahid Əhmədov, İmamvertdi İsmayılov, Aydın Hüseynov, Rüfət Quliyev, Anar Məmmədov, İqbal Məmmədov, Məşhur Məmmədov, Ziyad Səmədzadə komitənin üzvü Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə və Səhmdar Cəmiyyətin İdarə Heyətinin sədr müavini Pərviz Vəliyevə əzizləri
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sumqayıtdan Zakir Fərəcov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aqibət Məmmədov ailəsi ilə birlikdə Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Ay Konsaltinq LTD" MMC-nin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Ağdamdan Vaqif Həsənov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtərdən Müstəqim Məmmədov Milli Məclisin deputatı Ağalar Vəliyevə anası
**QARAGÖZ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7618
Sifariş 2151
Qiyməti 40 qəpik